

azerconnect

# İllik Dayanıqlı İnkişaf Hesabatı

2022

# MÜNDƏRİCAT


**1. Baş Direktorun müraciəti** 04

**2. Hesabat haqqında** 07

2.1 Hesabat haqqında 08

2.2 Maraqlı tərəflərlə əlaqələr 08

2.3 Əhəmiyyətliliyin təhlili 09

**3. Azerconnect haqqında** 11

3.1 Biz kimik 12

3.1.1 Şirkət haqqında qısa məlumat 12

3.2 Əsas dəyərlərimiz, missiya və məramımız 13

**4. İşgüzar etika və İqtisadi təsir** 15

4.1 Biznesin etik və məsuliyyətli şəkildə aparılması 16

4.1.1 Korrupsiyaya qarşı mübarizə tədbirləri 16

4.2 Korporativ idarəetmə 16

4.3 Azerconnect-in idarəetmə strukturu 17

4.4 Dayanıqlı inkişaf göstəriciləri 21

4.4.1 Məsuliyyətli biznes fəaliyyətinə töhfəmiz 21

4.4 İqtisadi göstəricilər 22

4.5 Təchizat zəncirinin idarə edilməsi 23

4.6 Ətraf Mühit, Sosial məsələlər və Korporativ İdarəetmə (ESG) və təchizatçının fəaliyyət dövrəsi 23

4.7 Təchizatçılar üçün Davranış Qaydaları 24

4.8 Yerli təchizatçıların həvəsləndirilməsi 24

**5. İnsanlar prioritet kimi – İnsanlar ön planda** 26

5.1 Prinsiplərimiz və prioritetlərimiz 27

5.1.1 Bərabər imkanlar 27

5.1.2 İşçilərin həvəsləndirilməsi və cəlb edilməsi 30

5.1.3 İşçilərin təkmilləşdirilməsi 31

5.3 Təhlükəsizliyin idarə edilməsi 32

5.3.1 Əməliyyat təhlükəsizliyi 32

5.3.2 İşçilərin təhlükəsizliyi və rifahı 33

**6. Sosial öhdəliklərimiz** 35

6.1 İctimaiyyətlə əlaqələrimiz 36

6.3 Tərəfdaşlıq fəaliyyətlərimiz 36

**7. Ətraf mühitlə bağlı öhdəliklərimiz** 38

7.1 İqlim dəyişikliyi ilə mübarizədə töhfəmiz 39

7.2 Azerconnect-in enerji təşəbbüsləri 39

7.3 Ekosistemin qorunması 40

**8. Son söz** 42

**9. Qeyri-maliyyə göstəriciləri cədvəlləri** 44

**10. GRI Açıqlamalar cədvəli** 50

**11. 2022-ci il üzrə Azerconnect MMC-nin Dayanıqlı inkişaf hesabatına dair Müstəqil Əminlik Bəyannaməsi** 62

1

# Baş Direktorun müraciəti

# Baş Direktorun müraciəti



Telekommunikasiya sənayesi geniş əhatə dairəsi və davamlı yeniliklərlə dünya bağlantı sistemində baş verən misilsiz tərəqqinin əsas hərəkətverici qüvvəsi olmuşdur. Azərbaycanda bu sənayenin aparıcı xidmət təminatçılarından biri olaraq, əsas öhdəliyimiz daha inklüziv və dayanıqlı dünyanın yaradılmasında müsbət və əhəmiyyətli təsir göstərməkdir. Fəaliyyət proseslərinin yaxşılaşdırılması ilə bağlı baza stansiyalarımızı və səylərimizi artıraraq korporativ müştərilərimizin tələblərinə tam cavab verə və İKT texnologiyaları bazarında etibarlı tərəfdaş ola bilərik. Belə innovativ texnologiyaya keçidi istiqamətləndirərək və xidmətlərimizin keyfiyyətli olması üçün çalışaraq, daha əlaqəli və rəqəmsal baxımdan bərabərhüquqlu gələcəyə şərait yaradırıq. Müştərilərin və ictimaiyyətin gözləntilərinə görə sistem və şəbəkələrimizin mühafizə və təhlükəsizliyinin təmin edilməsi Azerconnect şirkətində vacib məsələlərdən biridir.

Biz öhdəlik və səylərimizin təsdiqi olaraq Azerconnect-in birinci Dayanıqlı İnkişaf Hesabatını maraqlı tərəflərə fəxrlə təqdim edirik. Bu Hesabat dayanıqlılığın əməliyyatlarımıza və dəyər zəncirimizə daxil edilməsi istiqamətində mühüm bir addımdır. İnkişaf edən və sağlam ekosistem yaratmaq məqsədilə biz müştərilər, işçilər, cəmiyyət və iş tərəfdaşlarımız ilə əməkdaşlıq öhdəliklərimizə sadiq qalırıq. Növbəti mərhələlərdə biz ətraf mühitlə bağlı məsuliyyət, enerjiyə qənaət və sosial təsirin təşviqinin Şirkətin mədəniyyət və strategiyasına inteqrasiya olunmasını davam etdiririk.

Biz effektiv təhlükəsizlik idarəetməsinin və işçilərimizin təhlükəsizliyinin əhəmiyyətini başa düşürük. 2022-ci ildə vacib məqamlardan biri də işçilərimiz üçün təhlükəsiz və sağlam iş mühiti yaratmağa kömək edən **ISO 45001 "Peşə Sağlamlığı və Təhlükəsizliyi İdarəetmə Sistemi" sertifikatını** əldə etməyimiz olub. Peşə Sağlamlığı və Təhlükəsizliyi İdarəetmə Sisteminin işə salınması təhlükə və risklərin müəyyən edilməsinə, xəsarətlərin və bədbəxt hadisələrin azalmasına imkan yaradır. Biz daim sağlamlıq və təhlükəsizlik fəaliyyətimizi yaxşılaşdırmağa, işçilərimizi məlumatlandırmağa və ən yeni sağlamlıq və təhlükəsizlik qaydalarına uyğunluğu qorumağa çalışırıq. Beləliklə, daha təhlükəsiz iş yeri işçinin əhval-ruhiyyəsinin də yüksək olmasına səbəb olur.

Biz həmçinin kadrların inkişafına yatırım etməyə, müəssisə daxilində müxtəliflik və inklüzivliyi təkmilləşdirməyə davam edirik. Telekommunikasiya bazarının dəyişkən ehtiyaclarından xəbərdar olmağımız sayəsində, yenilənə və müştərilərimizə günbəgün yüksək xidmətlər göstərə bilirik. İnklüziv iş yeri mədəniyyətini inkişaf etdirməklə biz işçilərimizə ayrı-seçkilik və ya hər hansı maneələr ilə üzləşmədən

öz potensiallarına çatmaları üçün üçün səlahiyyət verə bilərik. Biz hər bir işçiyə ədalətli davranıldığı və inkişaf üçün bərabər imkanların verildiyi bir əmək mədəniyyəti yaratmaq səylərimizlə qürur duyuruq. Bundan başqa, biz işçilərin şəxsi inkişafı üçün təlimləri və işdən kənar tədbirləri tam şəkildə dəstəkləyirik. Biz işçilərin tələb olunan bilikləri əldə edə bilməsi üçün tez-tez görüşlər, kurslar və təlimlər təşkil edir, o cümlədən uğurlu namizədlərə maliyyə dəstəyi göstərməklə onların beynəlxalq sertifikatlara yiyələnməsinə yardımçı oluruq. Gender bərabərliyi Şirkətimiz üçün əsas diqqət mərkəzində olan məsələlərdən biridir və bu məqsədə nail olmaq üçün biz mövcud siyasətləri, proqramları və iştirak təşəbbüslərini həyata keçirmişik. Bu məqsədlə, 2022-ci ildə cəmiyyətimizdə qadınların hüquq və imkanlarının genişləndirilməsinə dəstək üçün Azerconnect tərəfindən KSM təşəbbüsləri irəli sürülmüşdür.

Planetimizin gələcək nəsillər üçün qorunmasına gəldikdə, fəaliyyətimiz ətraf mühitə nə dərəcədə diqqət göstərdiyimizi nümayiş etdirir. Ekoloji təmiz texnologiyalar və iqlim dəyişikliyi baxımından bir neçə təşəbbüsün və pilot layihələrin həyata keçirilməsi ilə ətraf mühitə təsirimizin azaldılması istiqamətində mühüm irəliləyişə nail olmuşuq. Enerji səmərəliliyi ilə əlaqəli səylərimiz istixana qazı tullantılarımızda azalma ilə nəticələnmişdir, həmçinin əməliyyatlarımızda tullantıların idarə edilməsi və suya qənaət daxil olmaqla davamlı təcrübələri uğurla həyata keçiririk. 2020-ci ildə Səngəçalda bərpa olunan enerji ilə, yəni günəş panellərinin yaratdığı enerji ilə işləyən ilk baza stansiyamızı quraşdırmışıq. 2023-cü il üçün ətraf mühitə təsirin azaldılması ilə bağlı **"qazla işləyən avtomobillər"** və **"vahid radio çıxış şəbəkəsinin müasirləşdirilməsi"** kimi daha effektiv və innovativ layihə və məqsədlərimiz var. Bütün təşəbbüslərimiz **İSO 14001 Ətraf Mühitin İdarə edilməsi Sistemi sertifikatına** uyğun olaraq həyata keçirilir.

İcma və maraqlı tərəflərimizin ehtiyaclarını prioritet tutaraq ətraf mühitə təsirimizin azaldılması ilə bağlı imkanlara yatırım etməyə davam edəcəyik. Azerconnect məsuliyyətli və dayanıqlı şəkildə fəaliyyət göstərmək öhdəliyinə sadiqdir. Bilirik ki, görüləcək daha çox iş var və biz telekommunikasiya sənayesində dayanıqlı inkişafın təmin edilməsində liderlik etmək uğrunda çalışırıq. Rəqəmsal gələcəyə doğru addımladıqca cəmiyyətə daha çox fayda vermək üçün davamlı olaraq məhsul, həll və xidmətlərimizi təkmilləşdirəcək və yeniləyəcəyik.

***Emil Məsimov***
*Baş Direktor*

2

# Hesabat haqqında

1.2 Hesabat haqqında
1.3 Maraqlı tərəflərlə əlaqələr
1.4 Əhəmiyyətliliyin təhlili

# Hesabat haqqında

## Hesabatın icmalı

Dayanıqlılıq Azerconnect-in korporativ fəlsəfə və təcrübələrinin tərkib hissəsidir. Dayanıqlı gələcəyə doğru öhdəlik və səylərimizi nümayiş etdirmək üçün Dayanıqlı İnkişaf üzrə ilk Hesabatımızda Azerconnect-in bu sahədəki təşəbbüslərinin icmalını təqdim edirik. Hədəf auditoriya müştərilərimiz, işçilərimiz, iş tərəfdaşlarımız, sərmayəçilərimiz, rəhbər əməkdaşlarımız, elm adamlarını, qeyri-hökumət təşkilatlarını (QHT) və ictimaiyyəti əhatə edir. Dayanıqlı İnkişaf haqqında Hesabat GRİ İndeksinin 50-ci səhifəsində qeyd edildiyi kimi, Qlobal Hesabatlılıq Təşəbbüsü (GRİ) Standartlarının "Əsas" versiyasına uyğundur və çərçivə olaraq, Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərindən istifadə edilərək hazırlanmışdır. Dayanıqlı inkişaf ilə bağlı tədbirlərimiz, beləliklə də bu Hesabatın məzmunu maraqlı tərəflərimiz üçün mühüm olan mövzuları, biznes fəaliyyətimizin təsirini və korporativ strategiya ilə bağlı qərarları nəzərə alaraq, əhəmiyyətlilik prinsipi əsasında müəyyən edilir.

Bu Hesabatda əks olunan maliyyə ili 1 yanvar 2022-ci il tarixindən 31 dekabr 2022-ci il tarixinə qədərki dövrü əhatə edir. Buna əlavə olaraq, Hesabatda maliyyə ilindən sonra davam edən dayanıqlı inkişaf istiqamətli əsas fəaliyyətlər haqqında məlumat da əks olunur. Hesabatdakı kəmiyyət rəqəmləri daha çox 2022 maliyyə ili üçün Azerconnect-ə aiddir. Hazırkı Hesabat həm Ingilis, həm Azərbaycan dilində dərc edilmişdir və hər iki versiya veb saytımızda yerləşdirilib.

Hesabatın dəqiqliyini, şəffaflığını və etibarlılığını təmin etmək məqsədilə bu Hesabatın 62-ci səhifəsində təqdim olunan seçilmiş dayanıqlı inkişaf göstəricilərinin müstəqil məhdud əminliyi təmin edən yoxlamasını həyata keçirmək üçün kənar əminlik xidməti şirkəti cəlb edilmişdir.

## Maraqlı tərəflərlə əlaqələr

Biz ünsiyyətdə açıq və səmimi olmaqla şəffaf fəaliyyət göstərərək Şirkətin Ətraf Mühit, Sosial məsələlər və Korporativ İdarəetmə (ESG) göstəricilərinin təsir göstərə biləcəyi, eləcə də fəaliyyəti bizim dəyərimizə təsir göstərə biləcək bütün maraqlı tərəflərlə etibarlı münasibətlər qurmağa çalışırıq.

Strategiya, məqsəd və planlarımızı müəyyənləşdirib tətbiq edərkən maraqlı tərəflərin Ətraf Mühit, Sosial məsələlər və Korporativ İdarəetmə (ESG) göstəriciləri daxil olmaqla müxtəlif məsələlərlə bağlı rəylərini əldə etmək üçün rəsmi və qeyri-rəsmi kanallar vasitəsilə onlarla tez-tez əlaqə saxlayırıq. Şəkil 1-də maraqlı tərəflərimiz, onların gözləntiləri və istifadə olunan əlaqə kanalları təsvir edilmişdir.

**Şəkil** 1 Azerconnect-in maraqlı tərəfləri, onların gözləntiləri və əlaqə kanalları

| Maraqlı tərəf qrupu | Maraqlı tərəflərin gözləntiləri | Əlaqə kanalı |
|---|---|---|
| Müştərilər | Müştərilərimizin maraqları ilə tanış olmaq və müştəri məmnuniyyətini qorumaq üçün onlarla sıx əlaqə saxlayırıq. | Mətbuat nəşrləri, dayanıqlı inkişaf haqqında hesabatlar, birbaşa rəylər, vebsayt, sosial media, beynəlxalq və yerli tədbirlərdə iştirak |

| Maraqlı tərəf qrupu | Maraqlı tərəflərin gözləntiləri | Əlaqə kanalı |
|---|---|---|
| **İşçilər** | Biz işçilərimizin fikirlərinə və sağlamlığına böyük dəyər verdiyimizə görə onlar üçün birlik hissini, ədalətli yanaşmanı və inkişaf şəraitini təmin edirik. | Daxili e-məktublar, fəaliyyət təhlilləri, rəhbərlə görüşlər, təlimlər |
| **Təchizatçılar** | Biz korporativ dəyərlərimizə, etik tələblərimizə və dayanıqlı inkişaf yanaşmamıza uyğun olan təchizatçılarla işləyirik. | Müvafiq araşdırmalar üzrə illik açıqlamalar, üz-üzə görüşlər, təchizatçı qiymətləndirməsi |
| **Hökumət orqanları və İctimai təşkilatlar** | Yaşadığımız cəmiyyətin sosial, iqtisadi və ekoloji quruluşunu qoruyacaq qayda və tələblərə əməl etmək üçün hökumət qurumları və orqanları ilə əməkdaşlıq edirik. | Mətbuat nəşrləri, hesabatlar, seminarlar, iclaslar |
| **Yerli icmalar** | Yaşadığımız və işlədiyimiz icmaya qayğı göstərdiyimiz üçün biz davamlı olaraq yerli icmalarla əlaqə saxlayırıq. | Dayanıqlı inkişaf üzrə hesabatlar, illik açıqlamalar, media, konfranslar |

# Əhəmiyyətliliyin təhlili

Strateji prioritetlərimiz, biznes imkanlarımız, eləcə də sosial, iqtisadi və ekoloji təsirlərimiz barədə düzgün anlayışa sahib olmaq üçün müştərilərimiz, işçilərimiz və digər maraqlı tərəflər ilə davamlı şəkildə qarşılıqlı əlaqə və ünsiyyət qururuq. Ekoloji, sosial, iqtisadi və idarəetmə mühitində baş verən dəyişikliklər barədə xəbərdar qalmaq məqsədilə fəaliyyətimiz və maraqlı tərəflərimiz üçün ən mühüm Ətraf Mühit, Sosial məsələlər və Korporativ İdarəetmə (ESG) məsələlərinin müəyyənləşdirilməsi və prioritetləşdirilməsi ilə bağlı olaraq əhəmiyyətlilik qiymətləndirməsi apardıq. Əhəmiyyətlilik qiymətləndirməsi iki meyar əsasında aparılır: mövzunun maraqlı tərəflər üçün əhəmiyyəti və mövzunun Şirkət üçün əhəmiyyəti. Müəyyən edilmişdir ki, məlumatların qorunması və kibertəhlükəsizlik, şəbəkə keyfiyyəti və əhatə dairəsi, müştəri əlaqələri, məhsul və xidmət təcrübəsi və tullantılar həm maraqlı tərəflər, həm də Şirkət üçün çox əhəmiyyətli mövzular hesab edilir. Əhəmiyyətli mövzular, eləcə də əhəmiyyətlilik qiymətləndirməsi ilə Şəkil 2-də tanış ola bilərsiniz.

## Şəkil 2 Əhəmiyyətlilik matrisi



3

# Azerconnect haqqında

3.1 Biz kimik
3.1.1 Şirkət haqqında qısa məlumat
3.2 Əsas dəyərlərimiz, missiya və məramımız

# Azerconnect haqqında

## Biz kimik

Azərbaycanda İKT sənayesi üzrə ilk Biznesdən biznesə (B2B) xidməti göstərən Azerconnect MMC texniki, informasiya texnologiyaları və digər əlaqədar sahələrdə geniş çeşiddə xidmətlər və ən yaxşı həllər təqdim edərək, İKT şirkətlərinə xərclərin azaldılmasına və keyfiyyət göstəricilərinin beynəlxalq standartlara uyğun olaraq təkmilləşdirilməsinə imkan yaradır. Qlobal tendensiyalarla uyğunlaşmaq və texnoloji tərəqqinin önündə olmaq üçün biz davamlı şəkildə Sənaye 4.0 (Dördüncü Sənaye İnqilabı) platformasını izləyir və onun rəqəmsallaşdırma, rəqəmsal transformasiya kimi proseslərdən ibarət əsas fəaliyyətlərini və ümumilikdə rəqəmsal qloballaşmanı əməliyyatlarımıza daxil edirik.



**Şəkil 3** Yaratdığımız dəyər

| | | |
|---|---|---|
| 8,995 BTS stansiyaları | 2G əhatə dairəsi - 99.85% | 2G zənglərin kəsilmə göstəricisi - 0.36% |
| 2,979 LTE stansiyaları | 3G əhatə dairəsi - 99.85% | 3G zənglərin kəsilmə göstəricisi - 0.36% |
| 3G yükləmə sürəti – 3 Mbit/s | 4G yükləmə sürəti – 17 Mbit/s | Məlumat əlçatanlığı - 99.57% |

Mobil və stasionar şəbəkə təminatçıları, İnternet xidməti təminatçıları, eləcə də qeyri-İKT sektoru üzrə fəaliyyət göstərən müəssisələr korporativ müştəri portfelimizi təşkil edir (Şəkil 3).

**Şəkil 4** Azerconnect-in müştəri portfeli

bakcell · AzerTelecom · golden pay · CityNet

nar · sazz · B&B TV Communication · ulduz telekom ULTEL · DataPLUS İnternet Provayder

# Əsas dəyərlərimiz, missiya və məramımız

## Məram

**Şirkət ölkənin İKT sektorundakı gələcək inişaf və hədəflərini aşağıdakı kimi görür:**

- Müştərilərin istək və ehtiyacları barədə çox məlumatlı olmağa və müştərilərə yaxın qalmağa davam etmək
- Tam və hərtərəfli telekommunikasiya xidmətləri göstərmək
- Çoxprofilli müştəri portfelini saxlamaq
- B2B sektorunda müasir xidmətlər və həllər təklif etmək
- Ölkənin İKT sektorunun və rəqəmsal keçid proseslərinin davamlı inkişafına töhfə vermək

# Missiya

Hərtərəfli və mərkəzləşdirilmiş xidmətlər göstərmək, davamlı olaraq biznes prosesləri təkmilləşdirmək və korporativ müştərilərin fərqli ehtiyac və tələblərini qarşılamaq üçün innovativ və sərbəst həllər təmin edərək İKT və yüksək texnologiyalar bazarında etibarlı tərəfdaş olmaq.

# Dəyərlər

## Müştərinin istiqamətləndirilməsi

Bir şirkət olaraq əsas məqsədimiz müştərinin məmnunluğudur. Bu isə yalnız müştərilərimizin ehtiyaclarını düzgün başa düşməklə, tələb olunan məhsul və xidmətləri vaxtında və keyfiyyətli şəkildə təqdim etməklə mümkündür.

## Yenilikçilik

Şirkətimiz yüksək texnologiyalar sahəsində, eləcə də düşüncə və davranışda, dayanıqlı inkişaf və təşəbbüskarlıqda yenilikləri tətbiq etmək qabiliyyətinə malikdir. Biz işimizə sadiqliyimiz, dürüstlüyümüz, peşəkarlığımız və yenilikçi ruhumuz ilə fərqlənirik.

## Etibarlılıq

Biz şəbəkəmiz, təqdim etdiyimiz xidmət və həllərimiz, eləcə də işçilərimiz ilə etibarlı münasibətlərə sahibik. Biz yüksək ixtisaslı mütəxəssislərdən ibarət peşəkar komandamızla keyfiyyətli və etibarlı xidmətlər göstəririk.

## Cəsarət

Etimadlılıq, dürüstlük və şəffaflıq bizim fəaliyyətimizdə, söz və əməlimizdə əsas prinsiplərimizdir.

## Əməkdaşlıq

Şirkət olaraq, biz birlikdə daha yüksək nəticələr əldə edəcəyimizi və yeni hədəflərə nail olacağımızı bilirik. Biz birlikdə daha yaxşısını yaradırıq!

4

# İşgüzar etika və İqtisadi təsir

4.1 Biznesin etik və məsuliyyətli şəkildə aparılması
4.1.1 Korrupsiyaya qarşı mübarizə tədbirləri
4.2 Korporativ idarəetmə
4.3 Azerconnect-in idarəetmə strukturu
4.4 Dayanıqlı inkişaf göstəriciləri
4.4.1 Məsuliyyətli biznes fəaliyyətinə töhfəmiz
4.4 İqtisadi göstəricilər
4.5 Təchizat zəncirinin idarə edilməsi
4.6 Ətraf Mühit, Sosial məsələlər və Korporativ İdarəetmə (ESG) və təchizatçının fəaliyyət dövrəsi
4.7 Təchizatçılar üçün Davranış Qaydaları
4.8 Yerli təchizatçıların həvəsləndirilməsi

# İşgüzar etika və İqtisadi təsir

## Biznesin etik və məsuliyyətli şəkildə aparılması

Rəqəmsal müəssisə kimi uğurlu olmaq üçün biz fəaliyyətimizin hər bir sahəsində davamlı və sistemli şəkildə tətbiq olunan yaxşı korporativ idarəetmə prinsiplərinə əməl etməliyik. Azerconnect-in iş prosesləri etik, məqsədyönlü davranış üçün çərçivə kimi xidmət edən əsas prinsiplərlə tənzimlənir. Davranış Qaydaları əsas dəyərlərimizi izah edən və iş yerində bu dəyərlərin tətbiq qaydasını göstərən şirkət miqyasında təlimatdır. Bu standarta bütün tərəflər, o cümlədən təchizatçılar, tərəfdaşlar və işçilər əməl etməlidir. Qaydalar idarəetmə ilə bağlı bütün tərəflərin riayət etməli olduğu norma və tələbləri müəyyən edir və Etika Məcəlləmizin əsasını təşkil edir.

Ən mümkün etik və şəffaf biznes təcrübələrini qorumaq öhdəliyinə sadiqliyimiz **Etika Məcəlləmizdə** əks olunur. Eynilə, **Davranış Qaydalarımız** həm daxili işçilərin, həm də kənar tərəflərin müəyyən etdiyimiz standartlara uyğun davranmasını təmin edir. **Təchizatçılar üçün Davranış Qaydaları** təchizatçıların riayət etdikləri iş prosedurlarının qiymətləndirməsini aparmaqla satınalma prosesində şəffaflıq və dürüstlüyün qorunmasına kömək edir. **İnsan Hüquqlarına dair Siyasətimiz** insan hüququ pozuntularının qarşısını almaq və bütün iş proseslərimizin ən yüksək etika və hüquqi standartlara uyğunluğundan əmin olmaq məqsədilə tətbiq olunur. Bundan əlavə olaraq, biz bütün işçilərimizə qarşı hər zaman ədalətli və hörmətli davranışı təmin etmək öhdəliyi daşıyırıq.

## Korrupsiyaya qarşı mübarizə tədbirləri

**Rüşvətxorluğa qarşı mübarizə Siyasətimiz** rüşvətxorluq hallarının qarşısının alınması ilə bağlı müvafiq davranış çərçivəsini müəyyən edir. Siyasət şəffaf biznes təcrübəsinin təşviqi üçün istifadə olunan korrupsiya ilə əsas mübarizə tədbirlərimizi əks etdirir. Bütün yeni işçilər missiyamız, məramımız və əsas dəyərlərimiz ilə tanış ola bilmək üçün işə qəbul prosesimizin vacib komponenti kimi tanışlıq təlimində iştirak edirlər. Şirkətin siyasət və prosesləri, o cümlədən ABMS Siyasəti, Davranış Qaydaları, **Maraqların Toqquşmasına dair Siyasət, İşçilər üzrə Araşdırma Siyasəti** yerli qanunvericiliyə və İSO 37001 kimi beynəlxalq standartlara uyğun olaraq korrupsiyaya qarşı mübarizə tədbirlərinin nəzarəti və tənzimlənməsi məqsədilə tətbiq edilir. Əlavə olaraq, kommersiya tərəfdaşları ilə bütün müqavilələrdə korrupsiya ilə bağlı maddə nəzərdə tutulub.

## Korporativ idarəetmə

Azerconnect-də maksimum səmərəliliyi, qaydalara uyğunluğu və biznesin etik fəaliyyətini təmin etmək üçün aydın idarəetmə strukturu qurulmuşdur. İdarəetmə orqanlarımız ümumi olaraq təkmilləşdirilmiş korporativ fəaliyyəti təmin edən birgə iş mühitini təşviq edir.

**0**

Hesabat ili ərzində korrupsiya halları qeydə alınmamışdır.

**100%**

Bütün işçilərimiz Şirkətin korrupsiyaya qarşı mübarizə siyasəti barədə məlumatlıdır.

# Azerconnect-in idarəetmə strukturu



**Emil Məsimov**
Baş Direktor

Emil Məsimov 17 ildən artıqdır telekommunikasiya sektorunda fəaliyyət göstərməkdədir. Cənab Məsimov telekommunikasiyanın tənzimlənməsi, idarə edilməsi və informasiya təhlükəsizliyi sahəsində müxtəlif rəhbər vəzifələrdə çalışmış və Azerfon (Nar) şirkətində Baş Direktorun müavini vəzifəsinə qədər yüksəlmişdir. 2016-cı ildən etibarən Azerconnect şirkətinin rəhbərliyində təmsil olunmaqla bərabər O, informasiya və kommunikasiya texnologiyaları sahəsində fəaliyyət göstərən bir neçə böyük şirkətin Müşahidə Şurasının üzvüdür.

Emil Məsimov 2005-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi İdarəetmə fakültəsini bitirmiş və təhsilini Bakı Dövlət Universitetində davam etdirərək 2007-ci ildə magistr dərəcəsi almışdır. 2013-cü ildə İngiltərinin Kembric şəhərində Mini-MBA təlimlərini uğurla başa vurduqdan sonra O, İngiltərənin Mançester Universitetində təhsilini davam etdirmiş və biznesin idarə edilməsi üzrə magistr dərəcəsi almışdır.

2021-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə rabitə və informasiya texnologiyaları sahəsində səmərəli fəaliyyətinə görə cənab Məsimov "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Cənab Məsimov 2022-ci ildə PLD (Program for Leadership Development) üzrə təhsilini müvəffəqiyyətlə bitirərək Harvard Biznes Məktəbinin məzunu olmuşdur.



**Dövlət Dövlətov**
Baş Direktorun Müavini

2017-ci ildə Azerconnect şirkətində Baş Audit İnzibatçısı kimi fəaliyyətə başlayan Dövlət Dövlətov hazırda Baş Direktorun Biznesin davamlılığının təmin edilməsi və risklərin idarə edilməsi prosesləri üzrə müavini vəzifəsində çalışır.

Azerconnect şirkətinə qoşulmazdan əvvəl cənab Dövlətov 15 ildən artıq peşəkar karyerası ərzində ölkənin aparıcı telekommunikasiya, maliyyə və kredit, neft və qaz şirkətlərində müxtəlif məsul vəzifələrdə təmsil olunmuşdur. Dövlət Dövlətov ixtisasca maliyyəçidir və Azərbaycan Dövlət İqtisad Universitetini 2002-ci ildə bakalavr, 2004-cü ildə isə magistr dərəcələri üzrə bitirmişdir. Cənab Dövlətov həmçinin ölkə daxilində və xaricdə Liderlik və İdarəetmə sahəsində müxtəlif proqramların iştirakçısı olmuşdur. Mərkəzi Avrasiya Liderlik Alyansının (CELA) üzvüdür.



**Mətanət Babayeva**
İnsan Resursları üzrə Baş Müdir

Mətanət Babayeva 2017-ci ilin avqust ayından etibarən Azerconnect şirkətində İnsan Resursları üzrə Baş Müdir vəzifəsində fəaliyyət göstərir. M. Babayeva artıq 20 ildir ki, telekommunikasiya sektorunda çalışır. O, bu sahədəki fəaliyyətinə 1998-ci ildə başlamış və ötən müddət ərzində müxtəlif ölkələrdə və şirkətlərdə İnsan Resursları Departamentinin fərqli vəzifələrində fəaliyyət göstərmişdir. M. Babayeva 2012-2017-ci illər ərzində "Azerfon" MMC-də İnsan Resursları departamentinə rəhbərlik etmişdir.

Mətanət Babayeva, Azərbaycan Dillər Universitetinin məzunudur. O, həmçinin 2016-cı ildə "IE Instituto de Empresa"-da Biznesin İdarə edilməsi üzrə magistr dərəcəsi almışdır.



**Özgür Genç**

İnformasiya və Texnologiyalar üzrə Baş Müdir

Özgür Genç 2019-cu ilin noyabr ayından etibarən Azerconnect şirkətində İnformasiya və Texnologiyalar üzrə Baş Müdir olaraq texnologiya strategiyalarının formalaşdırılması və həyata keçirilməsi ilə məşğuldur.

O, həm İKT, həm də Şəbəkə Texnologiyaları daxil olmaqla, Telekommunikasiya sahəsində 20 ildən çox təcrübəyə malikdir. Azerconnect şirkətindəki təyinatından öncə cənab Genç Türkcell şirkətində 19 illik dəyərli təcrübə qazanmışdır. Belə ki, o, Lifecell şirkətində (Ukrayna) İnformasiya üzrə Baş Direktor olaraq fəaliyyət göstərmiş, o cümlədən, Türkcell Qrup tərkibində texnologiyalar üzrə müxtəlif vəzifələrdə çalışmışdır. Özgür Genç "IMD" Biznes Məktəbində "Rəqəmsal Transformasiya və Gələcəyin İdarə olunması" kursunu müvəffəqiyyətlə tamamlamışdır. O, 1994-cü ildə Yıldız Texniki Universitetinin məzunu olmuşdur.



**Nicat İsmayılov**

Hüquq və Tənzimləmə Məsələləri üzrə Baş Müdir

2017-ci ildən Azerconnect şirkətində fəaliyyət göstərən Nicat İsmayılov hal-hazırda Hüquq və Tənzimləmə Məsələləri üzrə Baş Müdir vəzifəsini icra edir. Nicat İsmayılov 15 ildən çox olan peşəkar təcrübəsinin 10 ilə yaxın dövrünü telekommunikasiya sahəsində çalışmışdır.

O, Azerconnect şirkətindən öncə rabitə sahəsində ölkənin aparıcı şirkətləri olan Azerfon MMC (Nar Mobile) və AzerTelecom MMC-də dövlət orqanları ilə əlaqələr və hüquqi tənzimləmə sahəsində müxtəlif vəzifələrdə çalışmışdır. O, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasından məzun olmuş və hüquq sahəsində bir sıra beynəlxalq proqramların iştirakçısı olmuşdur.



**Orxan Nəcəfov**

Maliyyə üzrə Baş Müdir

Orxan Nəcəfov Azerconnect şirkətində 2018-ci ilin aprel ayından etibarən Maliyyə üzrə Baş Müdir vəzifəsində çalışır. Daha əvvəl o, Azerconnect şirkətində Maliyyə üzrə Baş Müdirin müavini kimi törəmə müəssisələr və sabit şəbəkə biznesinin maliyyə idarəsindən məsul olmuşdur. "EY London"-da korporativ maliyyə üzrə təcrübə qazanmış Orxan Nəcəfov bank, istehlak məhsulları sektoru və dövlət layihələrində də maliyyə sahəsində yüksək vəzifələrdə çalışmışdır.

Orxan Nəcəfov 2017-ci ildə "London Business School"-dan Maliyyə ixtisası üzrə magistr dərəcəsi almışdır. Həmçinin, Azərbaycan Dövlət İqtisad Universiteti, DePauw Universiteti və Mərkəzi Avropa Universitetində Maliyyə və İqtisadiyyat ixtisasları üzrə təhsil almış, CFA proqramının hər 3 səviyyəsini tamamlamışdır.



**Müşfiq Əliyev**
Marketinq üzrə Baş Müdir

Müşfiq Əliyev 2021-ci ilin aprel ayından Azerconnect şirkətində Marketinq üzrə Baş Müdir olaraq fəaliyyətə başlamışdır. O, telekommunikasiya, informasiya texnologiyaları, neft-qaz, və dövlət sektorunda kommersiya, marketinq, satış və strateji planlama istiqamətləri üzrə 15 ildən artıq rəhbər vəzifələrdə, o cümlədən 7 il İsveçin "Telia" şirkətində çalışmışdır.

M. Əliyev 2008-ci ildə Macarıstanda idarəetmə üzrə magistr dərəcəsini əldə etmişdir. O, həmçinin 2015-ci ildə İsveç Texnologiyalar İnstitutunda telekommunikasiya və informasiya texnologiyalarının idarəedilməsi sahəsində və 2006-cı ildə Avstriyada yerləşən Leopold-Franzens Universitetində beynəlxalq inkişafla bağlı təhsil almışdır. O, Beynəlxalq Qiymətləndirmə təşkilatının qiymətləndirmə üzrə ixtisaslaşmış meneceridir və "Oyunlar Nəzəriyyəsi"-nin biznesdə tətbiqi sahəsində Azərbaycanın nüfuzlu universitetlərində dərs demişdir.



**Zaur Bayramov**
Satış üzrə Baş Müdir

Zaur Bayramov 2021-ci ilin əvvəlindən etibarən Azerconnect şirkətində Satış üzrə Baş Müdir vəzifəsində fəaliyyət göstərir. O, 20 ildən artıq beynəlxalq və yerli şirkətlərdə peşəkar satış təcrübəsinin 15 ildən artıq dövrünü telekommunikasiya sahəsində çalışmışdır. Z.Bayramov telekommunikasiya sahəsində korporativ satış, biznesdən biznesə məhsulun idarəolunması və müştəri xidmətləri sahəsində rəhbər vəzifələrini icra etmiş və Bakcell şirkətində Satış idarəsinin direktoru vəzifəsinə qədər yüksəlmişdir.

Z.Bayramov 2001-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin Mühasibat uçotu və audit ixtisasını bakalavr, 2003-cü ildə isə magistr dərəcələri üzrə bitirmişdir. Cənab Bayramov 2010-2012-ci illərdə telekommunikasiya sahəsi ilə əlaqədər müxtəlif Mini-MBA təlimlərini, IESE, INSEAD kimi təhsil ocaqlarında Liderlik və Satış idarəçiliyi üzrə təlimləri uğurla başa vurmuşdur.



**Gaukhar Kuzina**
Təchizat üzrə Baş Müdir

Gaukhar Kuzina Azerconnect şirkətində Təchizat üzrə Baş Müdir vəzifəsində çalışır. O 2017-ci ildən bəri şirkətdə müxtəlif vəzifələrə rəhbərlik edib. Xanım Kuzina telekommunikasiya sahəsində 15 ildən çox peşəkar təcrübəyə malikdir. O, öz peşəkar karyerasına ABB Automation Technologies şirkətində başlamış, daha sonra isə Alcatel (Qazaxıstan və Türkiyə) və Bakcell kimi şirkətlərdə çalışmışdır.

Xanım Kuzina Azerconnect şirkətində peşə fəaliyyətinə Şəbəkə Texnologiyaları İdarəsinin Proqram İdarəetmə Ofisində başlamışdır və daha sonra Mərkəzi Layihələr İdarəetmə Ofisində davam etmişdir. Gaukhar Kuzina Qazaxıstan İqtisad Universitetini (University of Economics) bitirmişdir. O, həmçinin İngiltərənin paytaxtı London şəhərində Telekom Mini-MBA kursunu tamamlamışdır.

Azerconnect korporativ mədəniyyətinin əsas komponenti olaraq, məsuliyyətli və effektiv korporativ idarəetmə və rəhbərliyin təmin edilməsinə səy göstərir. Direktorlar Şurası güclü korporativ idarəetmənin qorunması, habelə Şirkətin strateji istiqamətinin müəyyən edilməsi, mühüm məsələlər üzrə fəaliyyətə davamlı nəzarət edilməsi ilə bağlı öz məsuliyyətini başa düşür. Müvafiq olaraq, uyğunsuzluq, dələduzluq və ya qeyri-qanuni davranışla bağlı mümkün təhlükələri nəzarətdə saxlamaq və onların qarşısını almaq məqsədilə biz məsuliyyət və etika prinsiplərini gördüyümüz bütün işlərə tətbiq edirik.

**Baş Direktor** - Baş Direktor vəzifələri menecerlər və departamentlər arasında bölüşdürür, icraçı və idarəedici heyətin fəaliyyətini qiymətləndirir. BD qısamüddətli və uzunmüddətli strategiyaların tam və düzgün şəkildə icrasını təmin edir.

**Səhmdarların Ümumi Yığıncağı** - Azerconnect-in Ümumi Yığıncağı şirkətin ən ali orqanı kimi fəaliyyət göstərir. Ümumi Yığıncaq ildə bir dəfə, maliyyə ili bitdikdən sonra altı ay ərzində çağırılır. Müəyyən qərarlar, məsələn fəaliyyətin mahiyyət və ya xüsusiyyətində mühüm dəyişiklik edilməsi və ya digər korporativ məsələlər ilə əlaqəli qərarlar Səhmdarların Ümumi Yığıncağı tərəfindən təsdiqlənir.

**Direktorlar Şurası** - Direktorlar Şurası Şirkətin məramına əsaslanan strategiya qurmaqla maksimum ortaq dəyər yaratmağa çalışır, risk və imkanları qiymətləndirir. Üzvlər Səhmdarların Ümumi Yığıncağı tərəfindən müvafiq təhsillərinə və sənaye təcrübələrinə uyğun olaraq seçilir. Maraqların toqquşmasına yol verməmək üçün Direktorlar Şurasının üzvlərinə Azerconnect-də əlavə vəzifə daşımalarına icazə verilmir.

**Komitələr** - Azerconnect-in komitələri və onların vəzifələri aşağıda təqdim edilir:

| Komitə | Vəzifələr |
|---|---|
| **Nizam-intizam komitəsi** | Şirkətin işçilərinin **Davranış Qaydalarına və Etika Məcəlləyə** riayət etməsini təmin edir və qaydalara uyğunsuzluq hallarını araşdırır. |
| **İnvestisiya Komitəsi** | İnvestisiya strategiyası və fəaliyyətinin müəyyən edilməsi, investisiya portfelinin nəzarəti və idarə edilməsi üçün məsuliyyət daşıyır. |
| **Audit Komitəsi** | Maliyyə hesabatlılığı, daxili nəzarət sistemləri, daxili və xairici audit vəzifələri üzrə monitorinq funksiyalarını yerinə yetirməkdə Şuraya dəstək göstərir. |
| **Texnologiya Komitəsi** | Strategiya, texniki əməliyyatların icrası və texnologiyalar üzrə əhəmiyyətli sərmayələr üçün məsuliyyət daşıyır. |
| **Mükafatlandırma Komitəsi** | Səhmdarların uzunmüddətli maraqlarını təmin etmək məqsədilə Şuranı və baş rəhbərliyi cəlb etmək və həvəsləndirmək üçün məsuliyyət daşıyır. |

Korporativ idarəetmə üzrə ardıcıllıq aşağıdakı təşkilati strukturda əyani şəkildə göstərilir:

**SƏHMDARLARIN ÜMUMİ YIĞINCAĞI** → **DİREKTORLAR ŞURASI** → **BAŞ DİREKTOR** → **BAŞ RƏHBƏRLİK**

# Dayanıqlı inkişaf göstəriciləri

## Məsuliyyətli biznes fəaliyyətinə töhfəmiz

İKT sektorunda Azərbaycanın aparıcı xidmət təminatçısı kimi biz fəaliyyətimizi istər müştərilər, istər icma, istərsə də insanlar üçün məsuliyyətlə yerinə yetirməklə tanınmağa çalışırıq . Azerconnect daha dayanıqlı və inklüziv dünyanın yaradılmasında müsbət və əhəmiyyətli rol oynamaq üçün həqiqi məsuliyyəti dərk edir; bu səbəbdən biz müştərilərimiz, cəmiyyətimiz və insanlar üçün dəyər yaradaraq, sosial problemləri həll etmək və dayanıqlı inkişafı dəstəkləmək üçün texnoloji irəliləyişlərdən və rəqəmsal həllərdən istifadə etməyə çalışırıq. Biznes fəaliyyətlərimizin insanlara və ətraf mühitə təsirini ümumi dəyər zəncirimizə uyğun olan məsuliyyətli korporativ idarəetmə baxımından nəzarətdə saxlayırıq.

Rəqəmsal inklüziv dünya qurmaq üçün hər kəsə cəmiyyət və iqtisadiyyatla ünsiyyətdə olmaq imkanı verməyə çalışırıq. İnsanlara işləmək və biznesi effektiv idarə etmək, öyrənmək və biliklərini artırmaq, mühüm məsələlər barədə maariflənmək və sosial fəaliyyətlərdə iştirak etmək cəhdlərində yardımçı olaraq, dayanıqlı inkişafa öz töhfəmizi veririk.

Azerconnect-də biz davamlı olaraq dayanıqlı inkişaf anlayışını mədəniyyətimizə tətbiq edir və dəyər zəncirimizin bütün elementlərində nəzərə alırıq. Biz BMT-nin DİM-lərinə nail olmaq üçün texnologiyanın həlledici alət olduğuna inanırıq və bu səbəbdən işlərin irəliləməsi üçün müasir və innovativ texnologiyadan istifadə etmək bizim məsuliyyətimizdir. Cədvəl 1 BMT-nin DİM-lərinə nail olmağa yönəlmiş töhfə və məqsədlərimizi əks etdirir.

**Şəkil** 5 DİM hədəfləri

| DİM | MƏQSƏDLƏR | AÇIQLAMA |
|---|---|---|
| 1 YOXSULLUĞA SON | Yoxsulluğun qarşısını almaq üçün dəstəyin göstərilməsi | Azerconnect-in xidmətləri cəmiyyətdə yoxsulluğun azaldılmasına verilən töhfələr baxımından faydalı hesab olunur, məsələn, dövlət xidmətlərinin transformasiyası və aşağı gəlirlilərin müvafiq xidmətlərdən istifadəsinə icazənin verilməsi üçün əsas elektron xidmətlərdən və internetə ümumi bağlantıdan istifadə etmək; aşağı gəlirli təbəqənin rifahının təmin edilməsi və insan kapitalının inkişafının sürətləndirilməsi və digər belə tədbirlər üçün elektron təlimlər və səyyar tibbi xidmətlər vasitəsilə təhsili və səhiyyə xidmətlərini müasirləşdirmək. |

| DİM | MƏQSƏDLƏR | AÇIQLAMA |
|---|---|---|
|   | Bərabər imkanların artırılması və ayrı-seçkiliyin qarşısının alınması, təhsilə bərabər çıxış | İşçilərə bərabər və ədalətli münasibət korporativ siyasət və insan hüquqları baxımından əhəmiyyət kəsb etdiyi üçün bu prinsipi Şirkətimizin bütün səviyyələrində tətbiq edirik. |
|  | Əmək hüquqlarının qorunması və təhlükəsiz iş mühitlərinin təşviq edilməsi | Azerconnect insan hüquqlarının müdafiəsi öhdəliyinə uyğun olaraq bütün işçilərinin hüquqlarının müdafiəsini təmin etməyə çalışır. Şirkətimizin mədəniyyəti müasir köləlik, məcburi əmək kimi insan hüquqlarını pozan hər hansı fəaliyyətin qəbul olunmadığı bir mühit təmin edir. |
|   | Rəqəmsallaşma və innovasiyanın təşviqi; Dayanıqlı sənayeləşməyə dəstəyin göstərilməsi və möhkəm infrastrukturun yaradılması. | İnnovasiya əsas korporativ dəyərlərimizdən biridir. Məqsədimiz müştərilərimizi bütün bölgələrdə əlaqə və innovativ xidmətlər ilə təmin etməkdir. Bizim həllərimiz cəmiyyətin təhlükəsizliyini və dayanıqlılığını artırmaq məqsədi daşıyır. |
|  | Rəqəmsal inklüzivliyə dəstəyin göstərilməsi. | Cəmiyyətin hər bir üzvü üçün (xüsusilə də kənd ərazilərində yaşayanlara) xidmətlərimizdən istifadə etmək və faydalanmaq imkanını təmin etmək bizim əsas hədəflərimizdən biridir. |
|  | İqlim dəyişikliyinə qarşı tədbirlər görmək üçün bilik və bacarıqların artırılması | Biz infrastrukturumuzun enerji səmərəliliyini artırmaqla və azkarbonlu iqtisadiyyata keçidi asanlaşdıran üsullar yaratmaqla iqlim dəyişikliyi məsələlərini həll etməyi planlaşdırırıq. |
|  | Səmərəli tərəfdaşlıqların təşviq edilməsi; | Biz müvafiq məsələ ilə bağlı məqsədlərimizə nail olmaq üçün regional sosial və iqtisadi artıma dəstək göstərmək və təşkilatlar, QHT-lər, inkişaf agentlikləri və sosial sahibkarlar ilə əməkdaşlıq etmək niyyətindəyik. |

# İqtisadi göstəricilər

Bazarda fəaliyyətimizi genişləndirdikcə Azərbaycanın ümumi iqtisadiyyatına təsirimiz də artmaqdadır. Bu təsiri yeni iş yerlərinin sayının artması, eləcə də maraqlı tərəflərimizə təqdim etdiyimiz faydalar sübut edir. Yüksək xidmət səviyyəsi, güclü müştəri və təchizatçı əlaqələrinə olan sadiqliyimiz Şirkətə 2022-ci maliyyə ilini yüksək göstəricilərlə yekunlaşdırmağa imkan verdi. 2022-ci ildə Azerconnect yerinə yetirdiyi əməliyyat və xidmətlər qarşılığında **260,261 min AZN** gəlir əldə edərək Azərbaycanın cəmi ÜDM-nə öz töhfəsini vermişdir.

Azerconnect-in maliyyə göstəriciləri yüksək olmuşdur və davamlı olaraq artmağa davam edir. Biz uğurumuzu zəhmətimizə, innovasiyaları tətbiq etmək qabiliyyətimizə və müştəri məmnunluğuna borcluyuq ki, bu da bizə sənayedə rəqabət üstünlüyünü qoruyarkən hazırkı müştərilərimizi cəlb etməyə və saxlamağa imkan verdi.

Azerconnect resursların düzgün bölgüsü və işçilərin inkişafına qoyduğu sərmayələr sayəsində mənfəəti artırmaqla hökumət, yerli və xarici səhmdarlar və sərmayəçilər qarşısında fidusiar öhdəliklərini yerinə yetirir. Biz yerli qaydalara və tələblərə əməl edir və vergilərlə dövlətə müntəzəm ödənişlərimizi həyata keçiririk. Bu prosedurlar Azerconnect-in Maliyyə Departamentinin Vergi Bölməsi tərəfindən tənzimlənir.

**Cədvəl** 1 İqtisadi göstəricilər, rəqəmlə ( min AZN )

| | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| **Gəlir** | 208,298 | 207,338 | 260,261 |
| **Dövlət büdcəsinə ödənişlər və vergi ödənişləri** | 21,893 | 48,374[1] | 50,983 |

# Təchizat zəncirinin idarə edilməsi

Böyük telekommunikasiya və texnologiya şirkəti olaraq, biz müştərək və müxtəlif təchizat zəncirini biznes zərurəti və rəqabət üstünlüyü kimi görürük. Çoxsaylı təchizatçılar bizə müştərilərimizin ehtiyaclarına uyğun olan təchizat zəncirinin kompleks idarə edilməsi sistemini yaratmağa imkan verir. Biz fəaliyyət göstərdiyimiz icmalara mümkün qədər dəstək göstərmək istədiyimiz üçün etik tələblərə əməl edən və daimi təchizatçılarla tərəfdaşlıqları gücləndirməyə çalışırıq. Azerconnect təchizatçıları qiymətləndirərkən ətraf mühit, sağlamlıq, təhlükəsizlik, eləcə də insan hüquqları, əmək hüquqları və iş şəraiti nəzərə alınmaqla bütün dayanıqlı inkişaf prinsiplərini tətbiq etməyə çalışır. Biz təchizatçılarımızın bizim siyasətlərimiz, audit proqramlarımız və təlimlərimiz vasitəsilə tələblərimizə riayət etmələrini müəyyənləşdirmək üçün onlarla danışıqlar həyata keçiririk.

Oracle buludunda elektron maddi-texniki təchizat sisteminin yaradılması sayəsində biz fəaliyyət göstəricilərini optimallaşdırmağa, prosesin səmərəliliyini artırmağa və xərclərə qənaət etməyə çalışırıq. Bundan əlavə, daha çox təchizatçı ilə əlaqə yarada bilmək üçün biz 2022-ci ildə rəqəmsal platformalar vasitəsilə bir neçə əlaqə kanalından istifadə etmişik. Gələcək layihəmiz radio şəbəkəsinin müasirləşdirilməsindən ibarətdir və başlıca prioritetlərimizdən biri elektrik enerjisini daha səmərəli səviyyədə saxlamaq, eləcə də alternativ enerji mənbələrindən istifadəni təmin etməkdir. Bundan başqa, biz çoxprofilli müəssisələrin inkişafı, cəmiyyətin iqtisadi tərəqqisi və sosial bərabərlik məsələləri üzərində işləməyə davam edəcəyik.

# Ətraf Mühit, Sosial məsələlər və Korporativ İdarəetmə (ESG) və təchizatçının fəaliyyət dövrəsi

Davamlı və möhkəm təchizatçı əlaqələrinin yaradılması bizə hər hansı qanun pozuntusu riskini azaltmağa imkan verir. Biz şəffaflığı qorumaq üçün potensial təchizatçılarımızı tender və ya müsabiqə əsasında seçirik. Maksimum şəffaflıq bizə təchizat zənciri strukturlarımızı təhlil etməyə və sənaye və məhsula xas riskləri müəyyən etməyə imkan verir. Təchizatçının fəaliyyəti ilə bağlı məsələləri müəyyən etdiyimiz halda, irəliləyişlərə nail olmaq və

[1]Artım əvvəlki ilin vergi dövriyyəsi ilə bağlıdır.

həmçinin, cəmiyyət, ətraf mühit və işçilərimiz üçün ən yaxşı nəticələri əldə etmək məqsədilə onlarla danışıqlar aparırıq. Xidmət təminatçıları onlarla əlaqə qurmaq cəhdlərimizə baxmayaraq, fəaliyyət nəticələrini yaxşılaşdırmaqdan imtina etdikdə biz müqavilələrdən imtina edə və ya alternativ təchizatçılar seçə bilərik.

**Şəkil 6** Təchizatçının fəaliyyət dövrəsi

**Gözləntilər**
- Təchizatçı prinsipləri və əməkdaşlıq
- Şirkətin ətraf mühitə olan təsirin yoxlanılması

**Seçim**
- Təchizatçının yoxlanılması
- Müqavilə bağlanması



**Qiymətləndirmə**
- Attestasiya
- Performans qiymətləndirməsi
- Müxtəlif təchizatçı xərcləri

**Əlaqələr**
- Audit və yaxşılaşdırıcı tədbirlər planlaması
- Müxtəlif təchizatçılar üçün dəstək və sürətləndirmə proqramları

Məhsul/fəaliyyət nəticələri, bazar, bölgə və proses arasındakı ziddiyyət sahəsində keyfiyyət, etibarlılıq, xərc, innovasiya, tamlıq və dayanıqlı inkişaf təchizatçı seçimimizdə üstünlük verdiyimiz əsas amillərdir. Beləliklə, biz yalnız əməliyyatlarında hər cəhətdən yüksək etika və peşəkarlıq normalarına cavab verən, sosial məsuliyyət və ətraf mühit ilə bağlı inanclarımızı bölüşən və bizim keyfiyyət və təhlükəsizlik mədəniyyətimizi qoruyan təchizatçılarla işləyirik.

# Təchizatçılar üçün Davranış Qaydaları

Biz bütün təchizatçılarımızın **Təchizatçılar üçün Davranış Qaydalarına (TDQ)** və ya ekvivalent qaydalar toplusuna əməl etməsini təmin edirik. Azerconnect satınalma ilə bağlı qərarlar qəbul edərkən təchizatçıların TDQ-də müəyyən olunmuş standartları yerinə yetirmək və ya onları aşmaq qabiliyyətini nəzərə alır. Təchizatçılarımızın bir çoxu TDQ-ə əməl etməyə hazırdırlar və biz yarana biləcək müvafiq riskləri idarə etmək üçün proseslər müəyyənləşdirmişik. Bu qaydalara riayət edərək təchizatçılar dünya üzrə qəbul olunmuş insan hüquqlarının müdafiəsini dəstəklədiklərini və Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin prinsiplərinə uyğun şəkildə, yəni ayrı-seçkilikdən, uşaq əməyindən və məcburi əməkdən yayınaraq və ətraf mühiti qoruyaraq fəaliyyət göstərdiklərini təsdiqləyirlər.

# Yerli təchizatçıların həvəsləndirilməsi

Dəyər zəncirimizin mühüm tərkib hissəsi kimi, təchizat zəncirini sərhədlərimizi genişləndirərək töhfələrimizin təsirini artıra biləcəyimiz bir üsul hesab edirik. Biz hər zaman tənzimlənən təchizat prosedurları vasitəsilə Şirkətimiz üçün ən yaxşı seçimi edir və yerli təchizatçılarla işləməyi və tələblərimizə uyğunluğu təmin etdikdə onları həvəsləndirməyi üstün tuturuq. Məqsədlərimizə nail olmaq üçün əməkdaşlıq çox vacibdir və biz mütəmadi olaraq, dayanıqlı inkişaf yolunda bizimlə irəliləyəcək mümkün qədər çox insanı cəlb etmək üçün yeni və effektiv yollar axtarırıq.

**Cədvəl 2** Yerli və xarici təchizatçıların ümumi satınalma büdcəsində payı ( min AZN )

| | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| **Təchizatçıların ümumi sayı** | 339 | 303 | 376 |
| **Yerli təchizatçıların ümumi sayı** | 263 | 250 | 311 |
| **Xarici təchizatçıların ümumi sayı** | 76 | 53 | 66 |
| **Ümumi satınalma büdcəsi** | 195,696 | 157,415 | 281,395 |
| **Yerli təchizatçılara/podratçılara xərclənən satınalma büdcəsi** | 129,944 | 107,212 | 190,193 |
| **Xarici təchizatçılara/podratçılara xərclənən satınalma büdcəsi** | 65,752 | 50,204 | 91,202 |

5

# İnsanlar prioritet kimi – İnsanlar ön planda


5.1 Prinsiplərimiz və prioritetlərimiz

5.1.1 Bərabər imkanlar

5.1.2 İşçilərin həvəsləndirilməsi və cəlb edilməsi

5.1.3 İşçilərin təkmilləşdirilməsi

5.3 Təhlükəsizliyin idarə edilməsi

5.3.1 Əməliyyat təhlükəsizliyi

5.3.2 İşçilərin təhlükəsizliyi və rifahı

# İnsanlar prioritet kimi – İnsanlar ön planda

## Prinsiplərimiz və prioritetlərimiz

Azerconnect işçiləri bizim sürətli inkişafımızın və uğurumuzun katalizatorlarıdır. Biz ən seçilən işəgötürən olaraq statusumuzu qoruyub saxlamağa və insan resurslarının idarə edilməsində əsas prinsiplər kimi işçilərin motivasiyası və cəlb edilməsinə, imkanların bərabərliyinə və kadr inkişafına diqqət yetirməklə iş mühitini yaxşılaşdırmağa səy göstəririk. Biz işdə hər kəsin öz töhfələrinə görə qiymətləndirildiyi, yeni ideyalar təqdim etmək üçün ilhamlandığı və peşəkar inkişaf imkanlarının verildiyi xoş bir mühit yaratmağa çalışırıq.




Azerconnect Azərbaycanda ilk dəfə keçirilən "HR Awards 2022" nominasiyasında "Ən yaxşı Sərbəst İş Rejimi Strategiyası"na görə mükafatlandırılmışdır. İşçilər üçün məsafədən iş mühitinin optimal idarə edilməsinə imkan verən, müasir sərbəst iş rejimi strategiyası olan "FLEXcellence" proqramı Şirkət tərəfindən bu nominasiyada təqdim edilmişdir. Qeyd olunan proqram uğurlu beynəlxalq təcrübəylə yanaşı, innovativ həllərin tətbiqi sayəsində Şirkətə öz fəaliyyətlərini optimallaşdırmaq imkanı verir. Hibrid biznes modelini tətbiq edərək biz daha təhlükəsiz iş şəraiti təmin edirik.

**Cədvəl 3** Azerconnect-in yerli ictimaiyyətdən işə götürdüyü yuxarı rəhbərlik üzvlərinin faiz göstəricisi

| | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| **Yerli əhalidən olan baş rəhbərliyin payı** | 100% | 100% | 100% |

## Bərabər imkanlar

İmkanların bərabərliyini və inklüzivliyi qoruyan bir şirkət olaraq, fərqli tarixçələri, perspektivləri və təcrübələri olan insanları qəbul etmək qabiliyyətimiz bizim ən güclü tərəflərimizdən biridir. Şirkətimizdə cəmiyyətin bütün təbəqələrindən, o cümlədən müxtəlif irqi və yaş mənsubiyyəti, fiziki imkanları və ya etnik qrupa mənsubluğu olan insanlar çalışır. Bu prinsiplərin qorunması bütün işçilərə eyni imkanların verildiyi gələcəyə aid baxışlarımızı həyata keçirmək üçün vacibdir

**0%**
**Ayrı-seçkilik hallarının ümumi göstəricisi**

Qadınları karyeralarında dəstəkləmək və "şüşə tavan" təsirindən ən mümkün və səmərəli şəkildə yayınmaq bərabərliyin qorunduğu cəmiyyətdə yaşamaq üçün nail olmağa çalışdığımız əsas məqsədlərdən biridir. Hesabat dövrü ərzində qadın işçilərimizin korporativ mühitdə necə inamlı, rahat olması və ruhlanması ilə bağlı rəhbərlə bir çox görüşlər və müzakirələr aparılmışdır. Bundan əlavə, Azerconnect qadınların hüquq və imkanlarının genişləndirilməsi platformasına qoşulmuş və bu istiqamətdə layihənin icrasına başlanmışdır ki, növbəti illərdə bu proqramın bir qədər də genişləndirilməsi nəzərdə tutulur. Bununla yanaşı, Azerconnect həm də qızların cəmiyyətimizdəki mövqeyinin artırılması ilə bağlı KSM layihələri planlamışdır.

**1**

**Əsas əmək haqqı üzrə qadınların kişilərə olan nisbəti**



İcra etdiyimiz təşəbbüslər çərçivəsində ADA Universitetində İKT üzrə təhsil alan gənc xanım tələbələrlə fokus qrupu formatında görüşlərimiz olmuşdur.

Belə tədbirlərin keçirilməsində məqsəd tələbələrlə şirkətin rəhbər heyəti arasında birbaşa ünsiyyətin qurulması, tələbələrin şirkətin təqdim etdiyi imkanlar barədə məlumatlandırılması, onların fikir və təkliflərinin dinlənilməsi və İKT sahəsində gələcək karyera inkişafı ilə bağlı müzakirələrin aparılması olmuşdur.

**Biz qadın işçilərimizin nailiyyətlərini işıqlandırmaq, özünə inamı təşviq etmək və qarşılıqlı əlaqəni inkisaf etdirmək məqsədilə funksional qadın qrupları yaratdıq.**

Bizim **Müxtəliflik və İnklüzivlik Siyasətimiz** iş yerlərimizdə ayrı-seçkilik, qısnama və ya zorbalıq tərəfdarı olmadığımızı aydın şəkildə izah edir və bu problemlərin aradan qaldırılması üçün görəcəyimiz tədbirləri əks etdirir. İşə qəbul prosesində həmçinin prinsiplərə ciddi şəkildə riayət olunur: cinsindən, irqindən, yaşından və etnik mənsubiyyətindən asılı olmayaraq, iş üçün müraciət edənlərə işə qəbul prosesində eyni diqqət göstərilir.

**Cədvəl 4** Azerconnect-in işçilərinin sayı, cinsə görə

| | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| **İşçilərin ümumi sayı** | 1,406 | 1,384 | 1,596 |
| **Kişi işçilərin sayı** | 885 | 935 | 1,097 |
| **Qadın işçilərin sayı** | 521 | 449 | 499 |

**Cədvəl 5** Azerconnect-in yeni işçiləri və işçi dövriyyəsi, cinsə görə

| | | 2020 | | 2021 | | 2022 | |
|---|---|---|---|---|---|---|---|
| | Ölçü vahidi | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| **Yeni işçilərin ümumi sayı** | Say | 259 | 112 | 285 | 285 | 331 | 112 |
| **İşçi dövriyyəsinin ümumi sayı** | Say | 206 | 127 | 128 | 128 | 169 | 62 |
| **İşçi dövriyyəsi əmsalı** | Əmsal, % | 23.7 | | 14.5 | | 14.5 | |

**Cədvəl 6** Azerconnect-in yeni işçiləri və işçi dövriyyəsi, yaşa görə

| | 2020 | | | 2021 | | | 2022 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 30 yaşa qədər | 30-50 | 50 yaşdan çox | 30 yaşa qədər | 30-50 | 50 yaşdan çox | 30 yaşa qədər | 30-50 | 50 yaşdan çox |
| **Yeni işçilərin ümumi sayı** | 153 | 211 | 7 | 189 | 174 | 19 | 279 | 156 | 8 |
| **İşçi dövriyyəsinin ümumi sayı** | 109 | 214 | 10 | 92 | 98 | 11 | 127 | 100 | 4 |

**Cədvəl 7** Azerconnect-in işçilərinin sayı, vəzifəyə görə

| | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| **İcraçı** | 246 | 226 | 236 |
| *Kişi* | 180 | 164 | 176 |
| *Qadın* | 66 | 62 | 60 |
| **Mütəxəssis** | 776 | 735 | 878 |
| *Kişi* | 463 | 463 | 558 |
| *Qadın* | 313 | 272 | 320 |
| **Digər** | 315 | 423 | 482 |
| *Kişi* | 173 | 308 | 363 |
| *Qadın* | 142 | 115 | 119 |

**Cədvəl 8** Azerconnect-də valideynlik məzuniyyəti üzrə işçilərin sayı

| | 2020 | | 2021 | | 2022 | |
|---|---|---|---|---|---|---|
| | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| **Valideynlik məzuniyyəti hüququ olan işçilərin ümumi sayı, cinsə görə** | 885 | 521 | 935 | 449 | 1,097 | 499 |
| **Valideynlik məzuniyyəti götürmüş işçilərin ümumi sayı, cinsə görə** | 0 | 32 | 0 | 25 | 0 | 28 |
| **Valideynlik məzuniyyəti bitdikdən sonra işə qayıtmış işçilərin ümumi sayı, cinsə görə** | 0 | 8 | 0 | 20 | 0 | 29 |

**Cədvəl 9** Azerconnect-də işçi müxtəlifliyi, cinsə görə

| | 2020 | | 2021 | | 2022 | |
|---|---|---|---|---|---|---|
| | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| **İşçilərin faiz göstəricisi** | 64.67% | 35.33% | 67.56% | 32.44% | 68.73% | 31.27% |
| **Fiziki məhdudiyyətli** | 1.89% | 0.62% | 1.81% | 0.51% | 1.50% | 0.45% |
| **Məcburi köçkün statuslu** | 2.22% | 0.67% | 2.17% | 0.79% | 2.32% | 0.69% |

**Cədvəl 10** Cinsə görə fiziki məhdudiyyətli işçilərin əmsalı

| | 2020 | | | 2021 | | | 2022 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 30 yaşa qədər | 30-50 | 50 yaşdan çox | 30 yaşa qədər | 30-50 | 50 yaşdan çox | 30 yaşa qədər | 30-50 | 50 yaşdan çox |
| **İşçilərin faiz göstəricisi** | 26.18% | 68.33% | 5.49% | 24.86% | 69.29% | 5.85% | 28.32% | 65.60% | 6.08% |
| **Fiziki məhdudiyyətli** | 0.25% | 1.92% | 0.19% | 0.29% | 1.88% | 0.14% | 0.13% | 1.57% | 0.25% |
| **Məcburi köçkün statuslu** | 0.81% | 2.23% | 0.10% | 0.79% | 2.10% | 0.07% | 0.88% | 1.94% | 0.19% |

# İşçilərin həvəsləndirilməsi və cəlb edilməsi

Azerconnect-in uğurlarının əsasında onun əməkdaşlarının səyləri dayanır və bu səylər rəqəmsal dəyişikliyin düzgün idarə edilməsini dəstəkləyən sosial hərəkat formasında Şirkətin hüdudlarını aşmaq imkanına malikdir. Belə ki, məqsədimiz hər bir işçinin öz uğurları ilə fəxr etdiyi, ideyalarını paylaşdığı iş yeri yaratmaq və cəmiyyətin bir parçası olmaqdır.

Fəal işçilər bizim uğurumuzda və inkişafımızda mühüm rol oynayırlar, bu səbəbdən də biz, onların prioritetlərini öz məqsədlərimizdən öndə tuturuq. Öz işinə sərmayə qoyan və uğuru müştərilərə mükəmməl xidmətlər göstərməkdə görən işçilər yeni ideyalar gətirir və hər kəsin təşəbbüs göstərə bildiyi cəmiyyət qurmağa çalışırlar.

Fikirlər qarşılıqlı olması məqsədilə əməkdaşlarımız arasında iştirakın artırılması üçün sorğu sistemi hazırlamışıq. Bütün sorğu prosesinin **tamamlanması üçün 2 həftə** tələb olunur və həmçinin, heyətlə rəhbərlik arasında sürətli ünsiyyət prosesini təmin edir. Sorğular daha dürüst cavabların əldə olunması və müzakirələrin təmin edilməsi üçün **anonim** şəkildə aparılır. Sorğunun nəticələri təqdim olunan məlumatın şəffaflığını təmin etmək məqsədilə **daxili hesabatda dərc olunur.** Sorğunun nəticələri əsasında təklif edilən dəyişikliklərin yerinə yetirilməsini asanlaşdırmaq üçün **tədbirlər planı** hazırlanır.

İşçilərin cəlb edilməsini gücləndirmək öhdəliyimizi artırmaq üçün biz, onların verdikləri töhfələri işıqlandıran əlavə mexanizmlərdən istifadə edirik. İşçilərimiz mentorları və kouçları vasitəsilə onları narahat edən məsələləri paylaşa, onunla bağlı fikir və problemlərini birbaşa çatdıra bilərlər. Həmçinin biz, **rəhbər səviyyədən olan əməkdaşlarımızla mütəmadi görüşlər** keçirərək işçilərin cəlb edilməsinin artırılması **metodlarını müzakirə edirik.**

Azerconnect-də işləməyin nə üçün əhəmiyyətli olduğu barədə işçilərdən fikir almaq üçün biz, işçilərimizin öz müsbət təcrübələrini paylaşa biləcəyi **"Dəyərli anlar"** adlı ünsiyyət yanaşmasını tətbiq edirik.







Əməkdaşlarımızın rahatlığını təmin etmək üçün oyun və istirahət sahəsi daxil olmaqla, yeni stressdən azadolma zonası yaradılmışdır. Bundan əlavə, biz, heyətimizi ruhlandırmaq və xoş iş mühiti yaratmaq üçün açıq məkanı və məşq otağını bəzəyərkən qraffitidən istifadə etmişik.

# İşçilərin təkmilləşdirilməsi

İşçilərimizin bizim ən dəyərli resursumuz olduğunu bilərək biz, onlara mükəmməl iş şəraiti yaratmağa çalışırıq. Azerconnect hər bir işçisinin töhfəsinin vacib olduğunu bilərək onların öz bacarıq və istedadlarını inkişaf etdirə biləcəyi mühiti və imkanları yaratmaq öhdəliyinə sadiq qalır.

İşçilərin təkmilləşdirilməsinə və inkişaf perspektivlərinə sərmayələrin qoyulması bizim üçün çox vacibdir. Belə ki, biz insanların peşəkar şəkildə inkişaf edə biləcəyi pozitiv  iş yerinin yaradılmasına böyük dəyər veririk. Şirkətin inkişafında kadrların təkmilləşdirilməsi mühüm rol oynayır və biz yüksək və orta dərəcəli rəhbər işçilərimiz üçün bir çox liderlik proqramları hazırlamışıq. 2023-cü ildə əsas məqsədimiz belə proqramları artırmaq və Şirkətimizin gələcəyi üçün yeni liderlər hazırlamaqdır.

**Cədvəl** 11 Azerconnect-in ümumi təlim saatları.

| Kateqoriya | Kişi | Qadın | Cəmi |
|---|---|---|---|
| **Cəmi təlim saatları** | 43,400 | 27,587 | 70,987 |
| Rəhbər | 9,800 | 6,287 | 16,087 |
| Mütəxəssis | 33,350 | 21,300 | 54,650 |
| Digər | 250 | 0 | 250 |

Hesabat ili ərzində Azerconnect heyətin mənəvi ruhunu və loyallığını yüksəltmək üçün rəhbər əməkdaşlarımızın təlim proqramlarına sərmayələr qoymuşdur. İşçilərimiz eləcə də rəhbərlər  korrupsiyaya qarşı mübarizə, etika, eləcə də ətraf mühit, sağlamlıq və təhlükəsizlik mövzularında təlimlərdə iştirak etməyə davam edirlər.

Məqsədimizin şərtsiz qəbulolunma və bərabərlik mədəniyyətinin yaradılması olduğunu bilərək,  işçilərimizin inanclarımıza uyğun irəliləyə bilmələri üçün lazımi məlumat və dəstəklə təmin edildiyi mühit yaratmağı hədəfləyirik.  Hər il əməkdaşlarımız üçün tələb olunan sabit sayda təlim saatlarını əks etdirən təlim planı hazırlayır və hədəflərin əldə olunması üzrə nailiyyətlərinə nəzarət edirik. Biz işçilərimizin peşəkar və fərdi inkişaf etmələrinə çalışırıq və bu məqsədlə daxili komandadan olan rəhbərlərin yetişdirilməsi üçün davamçıların planlaşdırılması proqramını hazırlamışıq. Bundan əlavə, işçilərin ofisdə və ya evdən çalışmasından asılı olmayaraq menecerlərin öz komandasını fəal şəkildə cəlb etməsinə yardımçı olan təlim proqramları həyata keçirmişik.

Hesab edirik ki, rəqəmsallaşdırma gündəlik həyatımızın ayrılmaz hissəsini təşkil edir və məqsədimiz bunu Şirkətimizin bütün fəaliyyət sahələrinə tətbiq etməkdir. NEQSOL Academy əməkdaşlarımıza geniş tərkibə malik ən yaxşı təlim və qarşılıqlı ünsiyyət mühiti yaradır. Belə ki, rəqəmsal platformalar sayəsində işçilər vaxtlarına və enerjilərinə qənaət edə bilirlər.

**Cədvəl 12** Müxtəlif rəqəmsal təlim platformalarında aparılan Azerconnect-in ümumi təlim saatlarının sayı.

| Platformanın adı | Aid olan əməkdaşlar | Cəmi istifadəçilər | Aktivləşdirmə dərəcəsi |
|---|---|---|---|
| NEQSOL Academy | Bütün heyət | 1,650 | 93% |
| LinkedIn Təlim | İngilis dili biliyi orta səviyyədən yuxarı olan bütün kiçik və daha yüksək dərəcəli heyət | 650 | 98% |
| Udemy Business | İnformasiya Texnologiyaları; Şəbəkə texnologiyaları; Məlumat və Rəqəmsallaşdırma bölmələri | 35 | 100% |
| İR İnnovasiya Akademiyası | İR üzrə peşəkarlar | 5 | 100% |

İşçilər komandamıza qoşulduqda karyera irəliləyişi baxımından onlara bərabər imkanlar yaratmağı hədəfləyirik. Hazırda biz, rəqəmsallaşdırmaq və "karyera irəliləyişi" prosesimizi sürətləndirmək məqsədilə fəaliyyət effektivliyinin idarə edilməsi sistemini məlumat əsaslı idarəetmə sistemimiz olan Oracle Fusion-a köçürürük.

# Təhlükəsizliyin idarə edilməsi

İşçilərimizin təhlükəsizliyi mühüm əhəmiyyətli olduğundan Azerconnect, təhlükəsizliyin idarə edilməsi istiqamətində böyük məsuliyyətlə çalışır. Şirkətimizdə Sağlamlıq və Əməyin təhlükəsizliyi sahəsində əməliyyat problemlərinin aradan qaldırılması təhlükəsizlik rəhbərliyinin diqqət mərkəzindədir. Azerconnect-in əsas prinsiplərinə uyğun olaraq, SƏTƏM İdarəetmə Sistemimiz bütün əməliyyatlarımızın ən yüksək təhlükəsizlik tələblərinə tam uyğun həyata keçirilməsinə zəmanət verərək təkmilləşdirilməli sahələri müəyyən etmək və hər hansı riskləri aradan qaldırmaq üçün daim nəzərdən keçirilir.

# Əməliyyat təhlükəsizliyi

İş yerimizdə təhlükələrə və xəsarətlərə yol verməmək üçün biz, SƏTƏM sistemimizi təkmilləşdirməyə və iş mühitimizin qlobal standartlara uyğun olaraq sağlam və təhlükəsiz saxlanmasına çalışırıq. **SƏTƏM siyasətimiz** bütün işçilərin sağlamlıq və təhlükəsizlik prosedurlarının həm qlobal standartlara, həm də milli qaydalara uyğun olmasını təmin edir.

Biz SƏTƏM-i ISO 45001: Sağlamlıq və Əməyin Təhlükəsizliyinin İdarə edilməsi Sistemlərinin meyarlarına uyğun olaraq tətbiq edirik, hansı ki sertifikatlaşdırma prosesi üçün tələblərin bir hissəsi kimi həyata keçirilmişdir. Hesabat dövrü ərzində Şirkətin Baş Direktoru yeni standartların yerinə yetirilməsini tələb edən göstəriş verib. Həmçinin Baş Direktor bütün daxili proseslərin və siyasətlərin tətbiqinə müsbət yanaşmışdır. İş yerində potensial təhlükələri aşkar etməyə və qiymətləndirməyə yardımçı olan prosedurlar və standartlar müəyyən edilmişdir. Biz istənilən riskin azaldılması üçün vaxt amilini nəzərə almışıq və bu amili ciddi şəkildə tənzimləyirik.

Obyektərimizdəki risklər işçilərə izah edilmiş və işçilərə onların həlli barədə konkret təlimatlar verilmişdir. Biz, **Risklərin azaldılması üzrə Tədbirlər Planından** istifadə etməklə işçilərimizi artıq mövcud olan təhlükələrdən qoruyuruq. Planın əsas tərkib hissələri aşağıdakılardır:

*-Potensial risklərin müəyyən edilməsi*

*-Potensial təhlükələrin qiymətləndirilməsi*

*-İdarəetmə üzrə səylər və məsuliyyət*

*-İşçilərə təhlükəsizliyin idarə edilməsi ilə bağlı öz öhdəliklərindən tam məlumatlı olması məqsədilə təlimin keçirilməsi.*

Bu elementlər Şirkətimizin daxili sisteminə daxil edildiyindən siyasətlərimiz və prosedurlarımız işçilərimiz üçün hər zaman əlçatandır. Bundan əlavə, SƏTƏM departamentimiz müxtəlif proseslərə dair məlumatları paylaşır və onların hazırlanması zamanı heyətin dəstəyindən istifadə edir.

2022-ci ildə Azerconnect-in SƏTƏM departamenti **ISO 45001 sertifikatına layiq görülüb.**

**2022-ci ildə**
**0 ölüm halı**

# İşçilərin təhlükəsizliyi və rifahı

Biz komandamızın hər bir üzvünə qayğı ilə yanaşır və işçilərimizin öz sağlamlığı və xoşbəxtliyi barədə narahat olmadan özünü bütünlükdə işə həsr edə biləcəyi mühit yaratmaq üçün əlimizdən gələni edirik. Bilirik ki, Şirkətin mədəniyyəti onun işçilərinin daxili motivasiyasına əhəmiyyətli dərəcədə təsir göstərir. Tələbin böyük olduğu bazarda əhval-ruhiyyəni yüksəltmək üçün biz təhlükəsiz mühitin təmin edilməsinə mühim əhəmiyyət veririk.

Biz sağlamlıq və əməyin təhlükəsizliyi sahəsində göstəricilərimizi və statistikamızı yaxşılaşdırır, işçilərimizə tez-tez təlimlər keçir və ən son SƏTƏM standartlarına uyğun olmaq üçün mütəmadi yenilənən təlim materiallarından istifadə edirik. Əməkdaşlarımıza mexaniki idarəetmə, elektrik təhlükəsizliyi, yüksəklikdə iş, kəndir çıxışı sistemi və müxtəlif başqa mövzularda təlimlər keçirik. Heyətimizin hər bir üzvü təlimdə iştirak etmək öhdəliyi daşıyır və biz təlimlərin yüksək keyfiyyətdə olmasını təmin etmək üçün qiymətləndirmə sistemindən istifadə edirik.

**Şəkil 7** SƏTƏM təlimlərinin sayı və SƏTƏM təlimi keçmiş işçilərin sayı

**KEÇİRİLƏN SƏTƏM TƏLIMLƏRININ SAYI**




**SƏTƏM TƏLİMLƏRİ KEÇMİŞ İŞÇİLƏRİN SAYI**



Biz, Azerconnect-in hər bir işçinin inkişaf edə biləcəyi və öz səylərinin qarşılığını ala biləcəyi iş yeri olmasını istəyirik, müvafiq olaraq Şirkətimizin gücü işçilərimizin məqsədyönlü və çalışqan olmalarından qaynaqlanır. Biz perspektivli işçiləri həvəsləndirən və dəstəkləyən şirkət olaraq tanınmağa çalışırıq. Biz istedadlı mütəxəssislərin hazırlanmasına diqqət verir, lakin ən vacib məqamları nəzərdən qaçırmırıq. Biz işçilərin sağlamlığını və xoşbəxtliyini ön planda tutan mədəniyyəti təbliğ etmək üçün çox çalışırıq. Distant şəkildə kadr seçimi təşəbbüsümüz hədəfimizə daha da yaxınlaşmağa yardımçı oldu. Şirkətimizin bütün siyasətləri və prosedurları hibrid iş rejimini əks etdirmək məqsədilə yenilənmişdir və hazırda ofisdən işləmə rejiminə geri qayıtmağı planlamırıq.

**1,124,000₼**
İş şəraitinin yaxşılaşdırılmasına sərmayə qoyulmuşdur

**250,000₼**
Əsas vəsaitlərə sərmayə qoyulmuşdur

Pandemiya dövründə əməkdaşlarımıza qarşı qayğımız onlara istirahət günlərinin verilməsi ilə məhdudlaşmadı. Biz, əməkdaşlarımızı öz evlərindən çıxmadan işləməsi üçün lazım olan bütün şəraitlə təmin edərək ölkəmizdə məsafədən iş rejiminə keçidi dəstəkləməyə davam etdik. Məsafədən iş proqramı sayəsində biz, ölkənin və dünyanın müxtəlif hissələrində fəlakətlər baş verdikdə belə normal fəaliyyətimizi davam etdirə bildik. Şirkətimiz bütün işçiləri həm icbari, həm də əlavə tibbi sığorta ilə təmin edir. Binalarımız ən azı həftədə 2 dəfə təmizlənir və dezinfeksiya olunur, işçilər tibbi maskalar və əl üçün dezinfeksiya vasitələri ilə mütəmadi olaraq təmin edilir. Bundan əlavə, virusa yoluxan işçilərimizə 500 AZN-ə qədər maddi yardım təqdim olunur.

6

# Sosial öhdəliklərimiz

6.1 İctimaiyyətlə əlaqələrimiz
6.2 Tərəfdaşlıq fəaliyyətlərimiz

# Sosial öhdəliklərimiz

## İctimaiyyətlə əlaqələrimiz

2022-ci il ərzində Azerconnect cəmiyyətin dayanıqlı inkişafına dəstək olmaq məqsədilə elm və təhsilin inkişafı, gənc qızların və qadınların Azərbaycanın İKT sahəsində fəal iştirak üçün həvəsləndirilməsi, insan resurslarının inkişafı, cəmiyyətimizlə tərəfdaşlıqların və əlaqələrin qurulması kimi bir sıra təşəbbüslər həyata keçirmişdir.

Bildiyimiz kimi, gənclərimizin daha parlaq gələcəyi üçün praktiki birliklər qədər nəzəri biliklərin olması da vacibdir. Bununla əlaqədar bizim Azərbaycan Texniki Universiteti ilə müqaviləmiz vardır ki, bu da tələbələrə Azerconnect-in müvafiq departamentlərində təcrübə proqramları keçmək fürsəti verir.

## Tərəfdaşlıq fəaliyyətlərimiz

State Agency on VOCATIONAL EDUCATION

Peşə təhsili üzrə Dövlət Agentliyi ilə Azerconnect arasında imzalanmış Anlaşma Memorandumunun məqsədi əmək bazarının gözləntilərinə uyğun olaraq işçi qüvvəsinin inkişafına təkan verməkdir. Memorandum kadr tələbatının təhlili, qarşılıqlı razılaşdırılmış mövzular üzrə təlimin planlaşdırılması və tədris planlarının formalaşdırılması sahəsində əməkdaşlığı nəzərdə tutur. İl ərzində əmək bazarında dəyişən tələblər nəzərə alınmaqla bir sıra yeni təlimlər keçirilmiş və bu təlimləri uğurla başa çatdıranlar Azerconnect-də təcrübə keçmək imkanı qazanmışlar.





Azerconnect İKT bazarında ən böyük işəgötürən şirkətlərdən biri olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində Dövlət Məşğulluq Agentliyi ilə Anlaşma Memorandumu bağlamışdır. Memorandum məqsədi Agentliyin fəaliyyəti və qarşılıqlı maraq doğuran layihələr üzrə tərəflər arasında əməkdaşlığın qurulmasından, işsizlər və iş axtaranlar üçün əmək bazarının tələblərinə uyğun olaraq peşə seçiminin və peşə hazırlığının təmin edilməsindən, bilik və bacarıqların artırılmasından ibarətdir. Bu əməkdaşlıq korporativ sosial əlaqələrin inkişafı üçün təkliflərin hazırlanmasını, "Məşğulluq Marafonu" çərçivəsində şəhid ailələri və Vətən Müharibəsi veteranlarının işlə təmin olunmasına Azerconnect-in dəstəyini və müvafiq tədbirlərin, birgə innovativ layihələrin, forumların həyata keçirilməsini nəzərdə tutur.

Həmçinin 2022-ci il Azerconnect üçün bir neçə yerli universitetlərlə tərəfdaşlıqların qurulması ilə yadda qalmışdır ki, bunlardan biri də ADA universitetidir. Bu əməkdaşlıq çərçivəsində universitetin tələbələri ilə görüşlər keçirilmiş, İKT sahəsində təhsil alan tələbələrin fikir və təklifləri müzakirə olunmuşdur. Həmçinin görüşlərin keçirilməsində məqsəd Azerconnect-in rəhbər heyəti ilə İKT sahəsində qadın tələbələr arasında fikir mübadiləsini genişləndirmək, onların gələcək karyera inkişafını müzakirə etmək, tələbələrlə Şirkətin rəhbərliyi arasında birbaşa əlaqələr qurmaq, eləcə də tələblərlə praktiki imkanları paylaşmaq və gənc qadınları informasiya texnologiyaları sahəsinə cəlb etmək idi.



Azerconnect karyera sərgisində iştirak etməklə və universitetlərlə əməkdaşlıq çərçivəsində tədbirlər təşkil etməklə Azərbaycan Dövlət Neft və Sənaye Universiteti ilə möhkəm əlaqələr qurmuşdur. Ötən ilin sonunda Azerconnect-in rəhbərliyi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin İT tələbələri üçün "Sənin gələcəyin öz əlindədir" mövzusunda görüş keçirmişdir. Tələbələrlə şirkətlərin rəhbərliyi arasında keçirilən görüşün məqsədi tələbələri ideyaların geniş şəkildə müzakirəsinə cəlb etmək, onları ölkəmizdəki telekommunikasiya sənayesinin gələcəyi və müasir İKT tendensiyaları ilə tanış etmək, Azerconnect-də tələbələr üçün iş və təcrübə imkanlarını vurğulamaq və Şirkətin rəhbərliyi ilə tələbələr arasında birbaşa əlaqə yaratmaqdan ibarət idi.




Azərbaycan Texniki Universiteti ilə Azerconnect şirkəti arasında bağlanan müqaviləyə görə tələbələrin Azerconnect-də istehsalat təcrübəsinə cəlb edilməsi və təcrübə keçməsi nəzərdə tutulmuşdur. Müqaviləyə əsasən, AZTU tələbələri 2023-cü ilin fevral-mart aylarında Azerconnect-də bu sənaye sahəsi üzrə təcrübə keçmək fürsəti  əldə edəcəklər.

Azerconnect - BMT Qlobal Sazişinin və BMT Qadın Agentliyinin birgə layihəsi olan Qadınların səlahiyyətlərinin artırılması Prinsiplərinə (WEP) qoşulub ki, bu da iş yerində, əmək bazarında və cəmiyyətdə gender bərabərliyini və qadınların səlahiyyətlərinin artırılmasını nəzərdə tutur. Azerconnect-də 11 oktyabr - Beynəlxalq Qızlar Günü ilə bağlı keçirilən kampaniya çərçivəsində bir qrup fəal gənc qızlarla görüşlər keçirilib. Tədbirdə ümumilikdə



13-17 yaşlı 22 nəfər, o cümlədən, əhalinin həssas qruplarından olan qızlar (şəhid övladları, əlillər, valideyn himayəsindən məhrum olmuş gənclər, internat məktəblərində təhsil alan gənclər) iştirak etmişdir. İştirakçılara Azerconnect-in fəaliyyəti və gender bərabərliyinin artırılması, qadınların liderlik bacarıqlarının inkişafı üzrə səylərimiz, gənc qızların və qadınların İKT sahəsinə marağının artırılması istiqamətində həyata keçirdiyimiz tədbirlər, planlaşdırılan müxtəlif təhsil layihələri haqqında ətraflı məlumat verilmiş və Şirkət rəhbərləri ilə onları maraqlandıran suallar ətrafında müzakirələr aparılmışdır.

7

# Ətraf mühitlə bağlı öhdəliklərimiz

7.1 İqlim dəyişikliyi ilə mübarizədə töhfəmiz
7.2 Azerconnect-in enerji təşəbbüsləri
7.3 Ekosistemin qorunması

# Ətraf mühitlə bağlı öhdəliklərimiz

## İqlim dəyişikliyi ilə mübarizədə töhfəmiz

Telekommunikasiya sektoru əhəmiyyətli inkişaf yolu keçərək insanlar arasında əlaqə və məlumatlara çıxış üsullarında inqilab etmişdir. Lakin, bu sektor inkişaf etdikcə, İKT şirkətlərinin iqlim dəyişikliyinə təsiri ilə bağlı narahatlıqlar da artır. Müasir rəqəmsal dünyada İKT xidmətlərindən istifadənin artması enerji istehlakının və karbon emissiyasının artmasına səbəb olmuşdur.

İKT, iqlim dəyişikliyi ilə mübarizədə və onun təsirinin azaldılmasında mühim rol oynamaqla yanaşı bizə enerjidən istifadə və istixana qazlarının istehsalını idarə etmək imkanı verir. İKT sektorunda əməliyyatların iqlimə təsiri enerji səmərəliliyi tədbirləri və zəif karbon tullantılı enerjinin yaradılması və əldə edilməsi, eləcə də iqlim dəyişikliyi ilə əlaqədar şirkətlər və müştərilər üzrə risklərin idarə edilməsi sayəsində azaldıla bilər.

Ətraf mühitin qorunmasına dəyər verən şirkət olaraq, hesab edirik ki, biznes fəaliyyətində uğur ətraf mühit hesabına əldə edilməməlidir və biz bununla bağlı məsuliyyətimizdən tam xəbərdarıq. Biz ətraf mühitə təsirimizi azaltmaq üçün addımlar atırıq və məqsədimiz xidmətlərimizi və məhsullarımızı ekoloji cəhətdən daha səmərəli etməklə karbon izimizi azaltmaqdır.

Qeyd olunan bütün səylərdən əlavə, bərpaolunan enerji mənbələrindən istifadə layihəsinin həyata keçirilməsi karbon izimizi azaltmaq və ətraf mühitin idarə edilməsini yaxşılaşdırmaq istiqamətində atdığımız ən mühim addımlardan biri olmuşdur. Biz **Azərbaycanın Sanqaçal qəsəbəsində** ilk günəş enerjisi stansiyasını qurmuşuq. Qarabağ ərazisində yeni stansiyanın tikilməsi üçün 650 min manat büdcə ayrılmışdır. Yeni pilot layihəmizdə Bakıda 5 maşına ekoloji cəhətdən təmiz qazla işləyən motorlar quraşdırılmışdır. Qazla işləyən avtomobillərlə biz, neftdən asılılığı və karbon tullantılarını azaltmağı hədəfləyirik. Bu layihə Şirkət üçün əhəmiyyətli addımdır və biz gələcəkdə bərpa olunan enerjidən istifadəni artırmağı planlayırıq.

Qarşıdan gələn illərdə 2G, 3G, 4G-nin bir şəbəkdə birləşdirilməsinə imkan verən yeni **Radio Çıxış Şəbəkəsinin müasirləşdirilməsi (Single RAN modernization) layihəsinə** start verəcəyik. Bu layihə sayəsində enerji istehlakımız **30-40%** azalacaq.

## Azerconnect-in enerji təşəbbüsləri

Dünya iqlim dəyişikliyi ilə bağlı aktual problemlə üzləşməyə davam edərkən, enerjiyə qənaət təşəbbüslərinin həyata keçirilməsi həmişəkindən daha vacib olmuşdur. Azerconnect-də biz ətraf mühitə mənfi təsirləri azaltmaq və enerji baxımından daha səmərəli fəaliyyət göstərmək üçün böyük məsuliyyətlə çalışırıq. Bu məqsədlə biz dayanıqlı inkişafı daha geniş şəkildə təşviq etməyə yardımçı olan enerji baxımından səmərəli bir sıra təşəbbüslər həyata keçirmişik.

**Cədvəl** 13 Azerconnect-in enerji istehlakı

| | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| **Ofisdə enerji istehlakı (kvt)** | 94,600 | 233,851 | 374,616 |
| **Texniki avadanlıq üçün istifadə olunan elektrik enerjisi (yəni LTE, BTS və s.) (kvt)** | 72,273,721 | 67,232,089 | 67,564,842 |

| | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| **Dizel (ton)** | 255.64 | 806.35 | 1,310.78 |
| **Benzin (ton)** | 190.03 | 573.33 | 644.81 |

**Cədvəl 14** Azərconnect-in İQ emissiyaları

| | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| **Sahə 1 İQ emissiyaları (tCO2 e)** | 1,122.63 | 3,481.04 | 14,798.32 |
| **Sahə 2 İQ emissiyaları (tCO2 e)** | 15,365.97 | 14,325.04 | 14,425.59 |

**Şəkil 8** Bizim enerjiyə qənaət təşəbbüslərimiz

Şirkətimizdə davamlı texnoloji tərəqqi sayəsində biz, enerji istehlakımızı optimallaşdırmaq üçün qurulmuş sərinkeşlərdən və pəncərələrdən istifadə etməklə enerji səmərəliliyini artırmışıq.

Biz karbon emissiyalarımızı və neftdən asılılığımızı azaltmaq məqsədilə işıqlandırma sistemizdə daha az enerji sərf edən LED işıqdiod lampalarından istifadə edirik.

Üçüncü tərəf şirkətlərin köməyi ilə, elektrik generatorının təbiətə vurduğu ziyan daha da azaldılmışdır.

# Ekosistemin qorunması

Texnoloji nailiyyətlər sürətlənməyə davam edərkən İKT şirkətlərinin yaratdığı tullantıların həcmi də əhəmiyyətli dərəcədə artır. Hazırda telekommunikasiya sənayesi ilə bağlı mühim problem elektron tullantılardır. Vyana Birləşmiş Millətlər Universitetinin qiymətləndirmələrinə görə 2050-ci ilədək elektron tullantıların həcmi ildə 120 milyon tondan artıq ola bilər.

Rabitə və texnologiya sektorunda lider olmaq üçün biz, tullantılarımızın ümumi həcmini azaltmaq məqsədilə resurslardan səmərəli istifadə və tullantıların idarə edilməsi proqramlarını tətbiq etməliyik. Tullantıların idarə edilməsi yanaşmamız təhlükəsiz və məsuliyyətli təkrar istifadəni, təkrar emalı nəzərdə tutur ki, bu da resurslardan uzun müddət istifadəni təmin edir. Biz yalnız əməliyyatlarımızda istifadə olunan resursları və yaranan tullantıları deyil, eləcə də məhsullarımızın istehsalı, paylanması və istifadəsi zamanı yaranan tullantıları əhatə edən strategiya həyata keçirmişik.



[1]Dairəvi İqtisadiyyatın Sürətləndirilməsi Platformasından hesabat (PACE)

Bundan başqa, əməliyyatlarımızın əksəriyyətini rəqəmsallaşdırmaqla, yaratdığımız kağız tullantılarının azaldılmasına nail olmuşuq. Təhlükəli olmayan tullantılar üçün təkrar emal qutuları bütün binalarımızda yerləşdirilmişdir.

Biz su resurslarından məsuliyyətli və davamlı şəkildə istifadə etməyə çalışır, habelə bu dəyərli təbii sərvəti qorumaq üçün obyektlərimizdə yeni imkanlar və ağıllı həllər araşdırırıq. Binamızın sahəsinin birləşdirliməsi və ya kiçildilməsi sudan istifadəyə olan tələbatı daha da azaltmışdır. Bundan əlavə, işçilərimizi ofislərdə sudan qənaətlə istifadə etmək barədə təlimatlandırmaqla məişətdə su istifadəsini minimuma endirməyi hədəfləyirik. Növbəti illərdə ekosistemə dəstək olmaq məqsədilə biz, **Xəzər dənizi** sahillərinin çirklənməsinin qarşısını almaqla əlaqədar yeni təşəbbüslər və layihələr həyata keçirməyi planlayırıq.

**Cədvəl 15** Azerconnect-in su istehlakı

| | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| **Cəmi su istehlakı, $m^3$** | 134.8 | 134.8 | 124.4 |

Ekoloji cəhətdən təmiz əməliyyatlar aparmaq öhdəliyimiz çərçivəsində biz, bərpa olunan enerjidən istifadə etməklə yeni baza ötürücü stansiyaların tikintisi strategiyasını hazırlamışıq. Karbon izimizi azaltmaq və bu BTS-i tətbiq etməklə biz, daha dayanıqlı gələcək qurmağa dəstək olmaq istəyirik. Bərpa olunan enerjidən istifadə Azerconnect-in əməliyyatlarının ətraf mühitə mənfi təsirini azaltmaqla yanaşı, sosial və ekoloji məsuliyyət üzrə səylərimizi nümayiş etdirir.

**Cədvəl 16** Utilizasiyaya yönəldilmiş tullantılar

| | 2022 | |
|---|---|---|
| **Kağız** | **Qutu** | **Ton** |
| | 28 | 0.33 |
| **Təkərlər** | **Miqdar** | **Ton** |
| | 400 | 2 |

Son bir ildə Azerconnect nəzərəçarpacaq irəliləyişlər əldə etmişdir; lakin iqlim dəyişikliyinin təsirlərini yumşaltmaq, biomüxtəlifliyi qorumaq və çirklənməni azaltmaq üçün daha çox iş görülməlidir. Biz, enerjidən səmərəli istifadə və bərpa olunan enerji sərmayələrini bir araya gətirərək hədəflərimizə çatmaq istiqamətində çalışırıq.

# 8 Son söz

# Son söz

Biz maraqlı tərəflərimiz üçün faydalı və məlumatlandırıcı ola biləcək 2022-ci il üzrə ilk Dayanıqlı İnkişaf Hesabatımızı dərc edirik. Azerconnect olaraq hesab edirik ki, şirkətlər, korporativ investisiyaları dayanıqlı inkişaf və sosial təsir üçün təkanverici qüvvə kimi istifadə edərək BMT-nin DİM-lərinə əhəmiyyətli töhfə verə bilər. Mühüm sahələrdə yaratdığımız fərqlərə görə məsuliyyəti qəbul etmək üçün naiyyətlərimizi izləməyə və hesabat təqdim etməyə imkan verən iddialı hədəflər müəyyən etmişik.

Dayanıqlı inkişaf yolunun hələ başlanğıcında olduğumuzu bilsək də, bizim Şirkət miqyasında tətbiq edilən məsuliyyətli biznes strategiyamız uzunmüddətli korporativ sosial məsuliyyət öhdəliyimizə söykənir. Məhsullarımızın və xidmətlərimizin ətraf mühitə təsirini qiymətləndirmək və bununla bağlı məlumatlılığı artırmaq üçün biz, etibarlı və səmərəli metodologiyalar hazırlamağı hədəfləyirik.

Azərbaycanda rabitə sahəsində xidmətlər göstərən lider şirkətlərdən biri olaraq, dayanıqlı inkişafın idarə edilməsini təkmilləşdirərək cəmiyyətdə mühim rol oynamağı öz öhdəmizə götürürük.

# 9 Qeyri-maliyyə göstəriciləri cədvəlləri

# Qeyri-maliyyə göstəriciləri cədvəlləri

## İqtisadi fəaliyyət

| | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| Gəlir, min AZN | 208,298 | 207,338 | 260,459 |
| Dövlət büdcəsinə və vergi ödənişləri, min AZN | 21,893 | 48,374 | 50,983 |

## İnsan kapitalı

| İşçilərin sayı, cinsə görə | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| İşçilərin ümumi sayı | 1,406 | 1,384 | 1,596 |
| Kişi işçilərinin sayı | 885 | 935 | 1,097 |
| Qadın işçilərinin sayı | 521 | 449 | 499 |

| | 2020 | | 2021 | | 2022 | |
|---|---|---|---|---|---|---|
| | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| Yeni işçilərin ümumi sayı | 259 | 112 | 285 | 97 | 331 | 112 |
| İşçi dövriyyəsinin ümumi sayı | 206 | 127 | 128 | 73 | 169 | 62 |
| İşçi dövriyyəsi əmsalı | 23.7% | | 14.5% | | 14.5% | |

| | 2020 | | | 2021 | | | 2022 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 30 yaşa qədər | 30-50 | 50 yaşdan çox | 30 yaşa qədər | 30-50 | 50 yaşdan çox | 30 yaşa qədər | 30-50 | 50 yaşdan çox |
| Yeni işçilərin ümumi sayı | 153 | 211 | 7 | 189 | 174 | 19 | 279 | 156 | 8 |
| İşçi dövriyyəsinin ümumi sayı | 109 | 214 | 10 | 92 | 98 | 11 | 127 | 100 | 4 |

| | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| **İcraçı** | 246 | 226 | 236 |
| *Kişi* | 180 | 164 | 176 |
| *Qadın* | 66 | 62 | 60 |
| **Mütəxəssis** | 776 | 735 | 878 |
| *Kişi* | 463 | 463 | 558 |
| *Qadın* | 313 | 272 | 320 |
| **Digər** | 315 | 423 | 482 |
| *Kişi* | 173 | 308 | 363 |
| *Qadın* | 142 | 115 | 119 |

| | 2020 | | 2021 | | 2022 | |
|---|---|---|---|---|---|---|
| | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| **Valideynlik məzuniyyəti hüququ olan işçilərin ümumi sayı, cinsə görə** | 885 | 521 | 935 | 449 | 1,097 | 499 |
| **Valideynlik məzuniyyəti götürmüş işçilərin ümumi sayı, cinsə görə** | 0 | 32 | 0 | 25 | 0 | 28 |
| **Valideynlik məzuniyyəti bitdikdən sonra işə qayıtmış işçilərin ümumi sayı, cinsə görə** | 0 | 8 | 0 | 20 | 0 | 29 |

| | 2020 | | 2021 | | 2022 | |
|---|---|---|---|---|---|---|
| | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| **İşçilərin faiz göstəricisi** | 64.67% | 35.33% | 67.56% | 32.44% | 68.73% | 31.27% |
| **Fiziki məhdudiyyətli** | 1.89% | 0.62% | 1.81% | 0.51% | 1.50% | 0.45% |
| **Məcburi köçkün statuslu** | 2.22% | 0.67% | 2.17% | 0.79% | 2.32% | 0.69% |

| | 2020 | | | 2021 | | | 2022 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 30 yaşa qədər | 30-50 | 50 yaşdan çox | 30 yaşa qədər | 30-50 | 50 yaşdan çox | 30 yaşa qədər | 30-50 | 50 yaşdan çox |
| **İşçilərin faiz göstəricisi** | 26.18% | 68.33% | 5.49% | 24.86% | 69.29% | 5.85% | 28.32% | 65.60% | 6.08% |
| **Fiziki məhdudiyyətli** | 0.25% | 1.92% | 0.19% | 0.29% | 1.88% | 0.14% | 0.13% | 1.57% | 0.25% |
| **Məcburi köçkün statuslu** | 0.81% | 2.23% | 0.10% | 0.79% | 2.10% | 0.07% | 0.88% | 1.94% | 0.19% |

| Təlim saatları | Kişi | Qadın | Cəmi |
|---|---|---|---|
| **Cəmi təlim saatları** | 43,400 | 27,587 | 70,987 |
| Rəhbər | 9,800 | 6,287 | 16,087 |
| Mütəxəssis | 33,350 | 21,300 | 54,650 |
| Digər | 250 | 0 | 250 |

| Platformanın adı | Aid olan əməkdaşlar | Cəmi istifadəçilər | Aktivləşdirmə dərəcəsi |
|---|---|---|---|
| NEQSOL Academy | Bütün heyət | 1,650 | 93% |
| LinkedIn Təlim | İngilis dili biliyi orta səviyyədən yuxarı olan bütün kiçik və daha yüksək dərəcəli heyət | 650 | 98% |
| Udemy Business | İnformasiya Texnologiyaları; Şəbəkə texnologiyaları; Məlumat və Rəqəmsallaşdırma bölmələri | 35 | 100% |
| İR İnnovasiya Akademiyası | İR üzrə peşəkarlar | 5 | 100% |

## Sağlamlıq və Təhlükəsizlik

| | Ölçü vahidi | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|
| **Təqdim edilən SƏTƏM təlimlərinin sayı** | Sayı | 7 | 14 | 16 |
| **SƏTƏM təlimi keçmiş işçilərin sayı** | Sayı | 1,067 | 1,483 | 1,953 |

| | 2022 |
|---|---|
| **İş şəraitinin yaxşılaşdırılmasına qoyulan sərmayələrin cəmi, AZN** | 1 124 000 |
| **Fərdi mühafizə olunan avadanlıqlara investisiyaların cəmi, AZN** | 250 000 |

## Əməliyyat göstəriciləri

| | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| **Baza Ötürücü Stansiyaların sayı (BTS)** | 8,549 | 8,753 | 8,995 |
| **LTE stansiyalarının sayı** | 2,713 | 2,849 | 2,979 |
| **3G orta yükləmə sürəti, mbit/s** | 2 | 3 | 3 |
| **4G orta yükləmə sürəti, mbit/s** | 14 | 16 | 17 |
| **2G səs əhatə dairəsi, %** | 99.81 | 99.82 | 99.85 |
| **3G səs əhatə dairəsi, %** | 99.52 | 99.86 | 99.87 |
| **2G zəng kəsilməsi göstəricisi, %** | 0.36 | 0.38 | 0.36 |
| **3G zəng kəsilməsi göstəricisi, %** | 0.16 | 0.13 | 0.13 |
| **İnternetə çıxış, %** | 99.57 | 99.58 | 99.57 |

## Təchizat zənciri

| | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| **Təchizatçıların ümumi sayı** | 339 | 303 | 376 |
| **Yerli təchizatçıların ümumi sayı** | 263 | 250 | 311 |
| **Xarici təchizatçıların ümumi sayı** | 76 | 53 | 66 |
| **Ümumi satınalma büdcəsi, min AZN** | 195,696 | 157,415 | 281,395 |
| **Yerli təchizatçılara/podratçılara xərclənən satınalma büdcəsi, min AZN** | 129,944 | 107,212 | 190,193 |
| **Xarici təchizatçılara/podratçılara xərclənən satınalma büdcəsi, min AZN** | 65,752 | 50,204 | 91,202 |

# Ətraf mühit

| | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| **Ofisdə elektrik enerjisi istehlakı (kvt)** | 94,600 | 233,851 | 374,616 |
| **Texniki avadanlıq (yəni LTE, BTS) üçün istifadə olunan elektrik enerjisi (kvt)** | 72,273 721 | 67,232 089 | 67,564 842 |
| **Dizel (ton)** | 255.64 | 806.35 | 1 310.78 |
| **Yanacaq (ton)** | 190.03 | 573.33 | 644.81 |

| | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| **Ümumi su istehlakı (m³)** | 134.8 | 134.8 | 124.4 |

| | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| **Sahə 1 İQ emissiyaları (tCO2 e)** | 1,122.63 | 3,481.04 | 14,798.32 |
| **Sahə 2 İQ emissiyaları (tCO2 e)** | 15,365.97 | 14,325.04 | 14,425.59 |

| | 2022 | |
|---|---|---|
| **Kağız** | **Qutu** | **Ton** |
| | 28 | 0.33 |
| **Təkərlər** | **Miqdar** | **Ton** |
| | 400 | 2 |

# 10 GRI Açıqlamalar cədvəli

# GRI Açıqlamalar cədvəli

| Ümumi açıqlamalar | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 2: Ümumi açıqlamalar 2021 | 2-1 Təşkilati təfərrüatlar | Açıqlanmışdır | Azerconnect haqqında |
| | 2-2 Təşkilatın dayanıqlı inkişaf hesabatlarına daxil edilmiş müəssisələr | Açıqlanmışdır | Hesabat haqqında |
| | 2-3 Hesabat dövrü, tezlik və əlaqə vasitəsi | Açıqlanmışdır | Hesabat haqqında |
| | 2-4 Əvvəlki hesabatlarda əks olunmuş məlumatların dəyişdirilməsi | Açıqlanmışdır | Hesabat haqqında |
| | 2-5 Müstəqil əminlik xidmətləri | Açıqlanmışdır | Hesabat haqqında |
| | 2-6 Fəaliyyət, dəyər zənciri və digər işgüzar münasibətlər | Açıqlanmışdır | Yaratdığımız dəyər |
| | 2-7 İşçilər | Açıqlanmışdır | İnsanlar prioritet kimi – İnsanlar ön planda |
| | 2-8 İşçi olmayan şəxslər | Açıqlanmışdır | İnsanlar prioritet kimi – İnsanlar ön planda |
| | 2-9 İdarəetmə strukturu və tərkibi | Açıqlanmışdır | İdarəetmə strukturu |
| | 2-10 Ali idarəetmə orqanının namizədliyinin irəli sürülməsi və seçilməsi | Açıqlanmışdır | İdarəetmə strukturu |
| | 2-11 Ali idarəetmə orqanının sədri | Açıqlanmışdır | İdarəetmə strukturu |
| | 2-12 Ali idarəetmə orqanının təsirlərin idarə olunmasında rolu | Açıqlanmışdır | İdarəetmə strukturu |
| | 2-13 Təsirlərin idarə olunması məsuliyyətinin ötürülməsi | Açıqlanmışdır | İdarəetmə strukturu |
| | 2-14 Ali idarəetmə orqanının dayanıqlı inkişaf üzrə hesabatlılıq prosesində rolu | Açıqlanmışdır | İdarəetmə strukturu |

| Ümumi açıqlamalar | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 2: Ümumi açıqlamalar 2021 | 2-15 Maraqların toqquşması | Açıqlanmışdır | İdarəetmə strukturu |
| | 2-16 Mühüm məsələlərin bildirilməsi | Açıqlanmışdır | Biznesin etik və məsuliyyətli şəkildə aparılması |
| | 2-17 Ali idarəetmə orqanının kollektiv bilikləri | Açıqlanmışdır | İdarəetmə strukturu |
| | 2-18 Ali idarəetmə orqanının fəaliyyətinin qiymətləndirilməsi | Açıqlanmışdır | İdarəetmə strukturu |
| | 2-19 Mükafatlandırma siyasətləri | Açıqlanmışdır | İşçilərin həvəsləndirilməsi və cəlb edilməsi |
| | 2-20 Mükafatın müəyyən edilməsi prosesi | Açıqlanmışdır | İşçilərin həvəsləndirilməsi və cəlb edilməsi |
| | 2-21 İllik ümumi kompensasiya əmsalı | Açıqlanmışdır | İnsanlar prioritet kimi – İnsanlar ön planda |
| | 2-22 Dayanıqlı inkişaf strategiyası haqqında bəyanat | Açıqlanmışdır | Dayanıqlı inkişaf göstəriciləri |
| | 2-23 Siyasət üzrə öhdəliklər | Açıqlanmışdır | Biznesin etik və məsuliyyətli şəkildə aparılması |
| | 2-24 Siyasət üzrə öhdəliklərin icrası | Açıqlanmışdır | Biznesin etik və məsuliyyətli şəkildə aparılması |
| | 2-25 Mənfi təsirlərin aradan qaldırılması prosesləri | Açıqlanmışdır | Dayanıqlı inkişaf göstəriciləri |
| | 2-26 Məsləhətləşmə və problemlərin bildirilməsi mexanizmləri | Açıqlanmışdır | Biznesin etik və məsuliyyətli şəkildə aparılması |
| | 2-27 Qanun və qaydalara əməletmə | Açıqlanmışdır | Biznesin etik və məsuliyyətli şəkildə aparılması |
| | 2-28 Üzvlük assosiasiyaları | Açıqlanmışdır | Hesabat haqqında |

| Ümumi açıqlamalar | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 2: Ümumi açıqlamalar 2021 | 2-29 Maraqlı tərəflərin cəlb edilməsi yanaşması | Açıqlanmışdır | Maraqlı tərəflərlə əlaqələr |
| | 2-30 Kollektiv əmək müqavilələri | Açıqlanmamışdır | |

| Əhəmiyyətli mövzular | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 3: Əhəmiyyətli mövzular 2021 | 3-1 Əhəmiyyətli mövzuları müəyyən edilməsi prosesi | Açıqlanmışdır | Əhəmiyyətliliyin təhlili |
| | 3-2 Əhəmiyyətli mövzuların siyahısı | Açıqlanmışdır | Əhəmiyyətliliyin təhlili |
| | 3-3 Əsas mövzuların idarə edilməsi | Açıqlanmışdır | Əhəmiyyətliliyin təhlili |

| İqtisadi göstəricilər | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 201: İqtisadi göstəricilər 2016 | 201-1 Əldə edilmiş və paylaşdırılmış birbaşa iqtisadi dəyər | Açıqlanmışdır | Biznes davranışı və İqtisadi təsir |
| | 201-2 İqlim dəyişikliyi ilə əlaqədar maliyyə nəticələri, digər risklər və imkanlar | Açıqlanmamışdır | |
| | 201-3 Müəyyən edilmiş imtiyazlar planı üzrə öhdəliklər və digər pensiya planları | Açıqlanmamışdır | |
| | 201-4 Dövlətdən alınan maliyyə yardımı | Açıqlanmamışdır | |

| Bazarda mövcudluq | Açıqlama | Status | Location |
|---|---|---|---|
| GRI 202: Bazarda mövcudluq 2016 | 202-1 Yerli minimum əmək haqqı ilə müqayisədə cinslər üzrə standart ilkin əmək haqqı | Açıqlanmışdır | İnsanlar prioritet kimi – İnsanlar ön planda |
| | 202-2 Yerli əhalidən olan rəhbər işçilərin payı | Açıqlanmışdır | İnsanlar prioritet kimi – İnsanlar ön planda |

| Dolayı iqtisadi təsirlər | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 203: Dolayı iqtisadi təsirlər 2016 | 203-1 İnfrastruktur sərmayələri və dəstəklənən xidmətlər | Açıqlanmışdır | Məsuliyyətli iş fəaliyyətinə töhfəmiz |
| | 203-2 Əhəmiyyətli dolayı iqtisadi təsirlər | Açıqlanmışdır | Məsuliyyətli iş fəaliyyətinə töhfəmiz |

| Satınalma təcrübələri | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 204: Satınalma təcrübələri 2016 | 204-1 Yerli təchizatçılara xərclənən vəsaitlərin ümumi büdcəyə nisbəti | Açıqlanmışdır | Təchizat zəncirinin idarə edilməsi |

| Antikorrupsiya | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 205: Antikorrupsiya 2016 | 205-1 Korrupsiya riski üzrə qiymətləndirilmiş əməliyyatlar | Açıqlanmışdır | Əməliyyat təhlükəsizliyi |
| | 205-2 Anti-korrupsiya siyasət və prosedurları üzrə keçirilmiş təlim və kommunikasiya | Açıqlanmışdır | Korrupsiyaya qarşı mübarizə tədbirləri |
| | 205-3 Qeydə alınmış korrupsiya halları və bu halların qarşısını almaq üçün həyata keçirilmiş tədbirlər | Açıqlanmışdır | Korrupsiyaya qarşı mübarizə tədbirləri |

| Anti-rəqabət davranışı | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 206: Anti-rəqabət davranışı 2016 | 206-1 Sağlam olmayan rəqabət davranışları etimadsızlıq və monopoliya təcrübələri üzrə hüquqi tədbirlər | Açıqlanmışdır | Korrupsiyaya qarşı mübarizə tədbirləri |

| Vergi | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 207: Vergi 2019 | 207-1 Vergi yanaşması | Açıqlanmışdır | Biznesin etik və məsuliyyətli şəkildə aparılması |
| | 207-2 Verginin idarə edilməsi, nəzarət və risklərin idarə edilməsi | Açıqlanmamışdır | |
| | 207-3 Maraqlı tərəflərin cəlb edilməsi və vergi ilə bağlı məsələlərin idarə edilməsi | Açıqlanmamışdır | |
| | 207-4 Ölkələr üzrə hesabatlar | Açıqlanmamışdır | |

| Materiallar | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 301: Materiallar 2016 | 301-1 İstifadə olunan materiallar, həcm və ya çəki ilə | Açıqlanmamışdır | |
| | 301-2 Təkrar istifadə olunan giriş materialları | Açıqlanmamışdır | |
| | 301-3 Bərpa olunan məhsullar və qablaşdırma materialları | Açıqlanmamışdır | |

| Enerji | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 302: Enerji 2016 | 302-1 Təşkilat üzrə enerji sərfiyyatı | Açıqlanmışdır | Ətraf mühitlə bağlı öhdəliklər |
| | 302-2 Təşkilat xaricində enerji istehlakı | Açıqlanmamışdır | |
| | 302-3 Enerji intensivliyi əmsalı | Açıqlanmışdır | Ətraf mühitlə bağlı öhdəliklər |
| | 302-4 Enerji sərfiyyatının azaldılması | Açıqlanmışdır | Ətraf mühitlə bağlı öhdəliklər |
| | 302-5 Məhsulların və xidmətlərin enerjiyə tələbatında azalma | Açıqlanmamışdır | |

| Su və çirkab suları | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 303: Su və çirkab suları 2018 | 303-1 Su ümumi istifadə mənbəyi kimi | Açıqlanmışdır | Ekosistemin qorunması |
| | 303-2 Suyun axıdılması ilə bağlı təsirlərin idarə edilməsi | Açıqlanmışdır | Ekosistemin qorunması |
| | 303-3 Suyun götürülməsi | Açıqlanmamışdır | |
| | 303-4 Suyun axıdılması | Açıqlanmamışdır | |
| | 303-5 Su istehlakı | Açıqlanmışdır | Ekosistemin qorunması |

| Biomüxtəliflik | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 304: Biomüxtəliflik 2016 | 304-1 Qorunan ərazilər və yüksək biomüxtəliflik dəyəri olan ərazilərdə və ya bitişik ərazilərdə mövcud olan əməliyyat sahələri | Açıqlanmamışdır | |
| | 304-2 Əməliyyatların, məhsulların və xidmətlərin biomüxtəlifliyə ciddi təsirləri | Açıqlanmamışdır | |
| | 304-3 Qorunan və ya bərpa olunan ərazilər | Açıqlanmamışdır | |
| | 304-4 Əməliyyat sahələrində Beynəlxalq Təbiəti Mühafizə İttifaqının Qırmızı Siyahısına və milli qoruqların siyahısına düşmüş növlərin mövcudluğu | Açıqlanmamışdır | |

| Emissiyalar | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 305: Emissiyalar 2016 | 305-1 Birbaşa  (Sahə 1) İQ emissiyaları | Açıqlanmışdır | Ətraf mühitlə bağlı öhdəliklər |
| | 305-2 Dolayı İQ emissiyaları (Sahə 2) | Açıqlanmışdır | Ətraf mühitlə bağlı öhdəliklər |
| | 305-3 Digər dolayı İQ emissiyalar (Sahə 3) | Açıqlanmamışdır | |
| | 305-4 İQ emissiyaalrının intensivliyi | Açıqlanmışdır | Ətraf mühitlə bağlı öhdəliklər |
| | 305-5 İQ emissiyalarında azalma | Açıqlanmışdır | Ətraf mühitlə bağlı öhdəliklər |
| | 305-6 Ozon qatını məhv edən emissiyalar (ODS) | Uyğun deyil | |
| | 305-7 Azot oksidləri (NOx), kükürd oksidləri (SOx) və digər əhəmiyyətli hava emissiyaları | Uyğun deyil | |

| Tullantılar | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 306: Tullantılar 2020 | 306-1 Tullantıların yaranması və tullantılarla bağlı əhəmiyyətli təsirlər | Açıqlanmışdır | Ekosistemin qorunması |

| Tullantılar | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 306: Tullantılar 2020 | 306-2 Tullantılarla bağlı əhəmiyyətli təsirlərin idarə edilməsi | Açıqlanmışdır | Ekosistemin qorunması |
| | 306-3 Yaranan tullantılar | Açıqlanmışdır | Ekosistemin qorunması |
| | 306-4 Utilizasiyadan ayrılmış tullantılar | Açıqlanmışdır | Ekosistemin qorunması |
| | 306-5 Utilizasiyaya yönləndirilmiş tullantılar | Açıqlanmışdır | Ekosistemin qorunması |

| Təchizatçıların ətraf mühit üzrə qiymətləndirilməsi | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 308: Təchizatçının ətraf mühit üzrə qiymətləndirilməsi 2016 | 308-1 Ekoloji meyarlar üzrə qiymətləndirilmiş yeni təchizatçılar | Açıqlanmışdır | Təchizat zəncirinin idarə edilməsi |
| | 308-2 Təchizat zəncirində mənfi ekoloji təsirlər və görülən tədbirlər | Açıqlanmışdır | Təchizat zəncirinin idarə edilməsi |

| Məşğulluq | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 401: Məşğulluq 2016 | 401-1 Yeni işə götürülən işçilər və işçi dövriyyəsi | Açıqlanmışdır | İnsanlar prioritet kimi – İnsanlar ön planda |
| | 401-2 Müvəqqəti və ya yarımştat işçilərə təklif olunmayan, lakin tam ştat işçilərə təqdim olunan əlavə ödəmələr, güzəştlər və imtiyazlar | Açıqlanmamışdır | |
| | 401-3 Valideynlik məzuniyyəti | Açıqlanmamışdır | |

| İşçi və rəhbər əlaqələri | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 402: İşçi və rəhbər əlaqələri 2016 | 402-1 Əməliyyat dəyişiklikləri ilə bağlı minimum bildiriş müddətləri | Açıqlanmamışdır | |

| Əməyin təhlükəsizliyi və sağlamlıq | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 403: Əməyin təhlükəsizliyi və sağlamlıq 2018 | 403-1 Əməyin təhlükəsizliyi və sağlamlığın idarə edilməsi sistemi | Açıqlanmışdır | Təhlükəsizliyin idarə edilməsi |
| | 403-2 Təhlükələrin müəyyən edilməsi, risklərin qiymətləndirilməsi və hadisələrin araşdırılması | Açıqlanmışdır | Təhlükəsizliyin idarə edilməsi |
| | 403-3 Əməyin mühafizəsi xidmətləri | Açıqlanmışdır | Təhlükəsizliyin idarə edilməsi |
| | 403-4 Əməyin təhlükəsizliyi və sağlamlıqla bağlı işçilərin iştirakı, məsləhət xidmətləri və əlaqələrin yaradılması | Açıqlanmışdır | Təhlükəsizliyin idarə edilməsi |
| | 403-5 İşçilərə əməyin təhlükəsizliyi və sağlamlıq üzrə təlim | Açıqlanmışdır | Əməliyyat təhlükəsizliyi |
| | 403-6 İşçilərin sağlamlığının təbliği | Açıqlanmışdır | İşçilərin təhlükəsizliyi vərifahı |
| | 403-7 İşgüzar əlaqələrlə birbaşa əlaqəli olan əməyin təhlükəsizliyi və sağlamlıq məsələlərinin təsirlərinin qarşısının alınması və azaldılması | Açıqlanmışdır | Təhlükəsizliyin idarə edilməsi |
| | 403-8 Əməyin təhlükəsizliyi və sağlamlığın idarə edilməsi sistemi ilə əhatə olunan işçilər | Açıqlanmışdır | Təhlükəsizliyin idarə edilməsi |
| | 403-9 Əmək fəaliyyəti ilə bağlı zədələnmələr | Açıqlanmışdır | Təhlükəsizliyin idarə edilməsi |
| | 403-10 Əmək fəaliyyəti ilə bağlı xəstəliklər | Açıqlanmışdır | Təhlükəsizliyin idarə edilməsi |

| Təlim və təhsil | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 404: Təlim və təhsil 2016 | 404-1 Bir işçi üçün orta illik təlim saatları | Açıqlanmışdır | İşçilərin təkmillşdirilməsi |
| | 404-2 İşçi bacarıqlarının artırılması və keçidə dəstək proqramları | Açıqlanmışdır | İşçilərin təkmillşdirilməsi |
| | 404-3 Müntəzəm fəaliyyət və karyera inkişafı üzrə nəzərdən keçirilmiş işçilərin faizi | Açıqlanmışdır | İşçilərin təkmillşdirilməsi |

| Müxtəliflik və bərabər imkanlar | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 405: Müxtəliflik və bərabər imkanlar 2016 | 405-1 İdarəetmə orqanlarının və işçilərin müxtəlifliyi | Açıqlanmışdır | Bərabər imkanlar |
| | 405-2 Əsas əmək haqqı və mükafatlandırma üzrə qadınların kişilərə olan nisbəti | Açıqlanmışdır | Bərabər imkanlar |

| Ayrıseçkiliyin olmaması | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 406: Ayrı-seçkiliyin olmaması 2016 | 406-1 Ayrı-seçkilik hadisələri və onların qarşısını almaq üçün görülmüş tədbirlər | Açıqlanmışdır | Bərabər imkanlar |

| Birləşmə azadlığı və kollektiv müqavilələr | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 407: Birləşmə və kollektiv danışıqlar aparmaq azadlığı 2016 | 407-1 Fəaliyyət çərçivəsində birləşmək və kollektiv danışıqlar aparmaq azadlığından istifadə haqqını risk altına salan əməliyyatlar və təchizatçılar | Açıqlanmamışdır | |

| Uşaq əməyi | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 408: Uşaq əməyi 2016 | 408-1 Uşaq əməyinin istismarı üzrə yüksək riskli əməliyyatlar və təchizatçılar | Açıqlanmamışdır | |

| Məcburi və ya icbari əmək | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 409: Məcburi və ya icbari əmək 2016 | 409-1 Məcburi əməyin istismarı üzrə yüksək riskli əməliyyatlar və təchizatçılar | Açıqlanmamışdır | |

| Təhlükəsizlik təcrübələri | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 410: Təhlükəsizlik təcrübələri 2016 | 410-1 İnsan hüquqlarına dair siyasət və prosedurlar üzrə təlim keçmiş təhlükəsizlik heyəti | Açıqlanmışdır | Biznesin məsuliyyətli və etik şəkildə idarə edilməsi |

| Yerli sakinlərin hüquqları | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 411: Yerli sakinlərin hüquqları 2016 | 411-1 Yerli sakinlərin hüquqlarının pozulması halları | Uyğun deyil | |

| Yerli icmalar | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 413: Yerli icmalar 2016 | 413-1 Yerli icmaların cəlb olunması, təsirlərin qiymətləndirilməsi və inkişaf proqramları | Açıqlanmışdır | Sosial öhdəliklərimiz |
| | 413-2 Yerli icmalara mövcud və potensial əhəmiyyətli mənfi təsirləri olan əməliyyatlar | Açıqlanmışdır | Sosial öhdəliklərimiz |

| Təchizatçıların sosial qiymətləndirilməsi | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 414: Təchizatçıların sosial qiymətləndirilməsi 2016 | 414-1 Sosial meyarlar üzrə qiymətləndirilmiş yeni təchizatçılar | Açıqlanmışdır | Təchizat zəncirinin idarə edilməsi |
| | 414-2 Təchizat zəncirində mənfi sosial təsirlər və görülən tədbirlər | Açıqlanmışdır | Təchizat zəncirinin idarə edilməsi |

| İctimai siyasət | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 415: İctimai siyasət 2016 | 415-1 Siyasi xarakterli ödənişlər | Açıqlanmamışdır | |

| Müştəri sağlamlığı və təhlükəsizliyi | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 416: Müştəri sağlamlığı və təhlükəsizliyi 2016 | 416-1 Məhsul və xidmət kateqoriyalarının sağlamlıq və təhlükəsizlik təsirləri üzrə qiymətləndirilməsi | Açıqlanmamışdır | |
| | 416-2 Məhsul və xidmətlərin sağlamlıq və təhlükəsizlik tələblərinə cavab verməməsi halları | Açıqlanmamışdır | |

| Marketinq və etiketləmə | Açıqlama | Status | Yeri |
|---|---|---|---|
| GRI 417: Marketinq və etiketləmə 2016 | 417-1 Məhsul və xidmətlər üzrə məlumatlandırma və etiketləmə tələbləri | Açıqlanmamışdır | |
| | 417-2 Məhsul və xidmətlər üzrə məlumatlandırma və etiketləmə tələbləri ilə uyğunsuzluq halları | Açıqlanmamışdır | |

| Marketinq və etiketləmə | Açıqlama | Status | Yeri |
| --- | --- | --- | --- |
| GRI 417: Marketinq və etiketləmə 2016 | 417-3 Marketinq əlaqələri ilə bağlı uyğunsuzluq halları | Açıqlanmamışdır | |

| Müştərilərin məxfiliyi | Açıqlama | Status | Yeri |
| --- | --- | --- | --- |
| GRI 418: Müştərilərin məxfiliyi 2016 | 418-1 Müştərilərin məxfiliyinin pozulması və müştəri məlumatlarının itməsi ilə bağlı əsaslandırılmış şikayətlər | Açıqlanmamışdır | |

11

# 2022-ci il üzrə Azerconnect MMC-nin Dayanıqlı inkişaf hesabatına dair Müstəqil Əminlik Bəyannaməsi

# 2022-ci il üzrə Azerconnect MMC-nin Dayanıqlı inkişaf hesabatına dair Müstəqil Əminlik Bəyannaməsi

azerconnect